YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
29 dekabr 2024-cü il, bazar
№ 242 (6828)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Vladimir Putin Prezident İlham Əliyevə zəng etdi, üzr istədi

**Rusiya Prezidenti Azərbaycana məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında kənar müdaxiləyə məruz qalması nəticəsində baş vermiş faciəvi hadisə ilə bağlı başsağlığını çatdırıb.**



Bax səh. 2

**Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

# 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilsin.




Bax səh. 2

# Dövlət başçısı müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub

Bax səh. 2

## Diplomatik uğurlar ili...

2024-cü ilin bitməsinə sayılı günlər qalıb. Bu il ölkəmiz üçün bir çox mənalarda həm yaddaqalanlığı ilə seçildi, həm də uğurların sayına görə əvvəlkilərdən kəskin şəkildə fərqləndi. Bir məqamı qeyd etmək kifayətdir ki, Azərbaycanın 2024-cü ildə beynəlxalq aləmdəki nüfuzu daha da artdı - ölkəmiz COP29 kimi qlobal və nüfuzlu bir tədbirə ev sahibliyi etdi. Rəsmi Bakı bütün dünyaya gələcək “yaşıl hədəf”lərin müzakirəsi üçün geniş platforma yaratdı.

Arxada qoymağa hazırlaşdığımız ildə xarici siyasət sferasındakı nailiyyətlərimiz də böyükdür. İl ərzində Azərbaycan çoxvektorlu xarici siyasətini uğurla davam etdirib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüsləri və strateji addımları nəticəsində ölkəmizin beynəlxalq arenada mövqeyi daha da güclənib. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığını dərinləşdirərək regional və qlobal məkanda önəmli tərəfdaşa çevrilib. Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, görüşləri və bu çərçivədə imzalanan sənədlər mühüm rol oynayıb. İmzalanan çoxsaylı sənədlər, memorandumlar, qarşılıqlı əlaqələrin gücləndirilməsinə xidmət edən bəyannamələr Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artırıb.

Xarici səfərlər: Azərbaycan beynəlxalq aləmdə yaxın tərəfdaş kimi...

Bax səh. 3

## Sosial islahatların uğurları

Bax səh. 4

## Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır

Bax səh. 6

## Biznes mühitinin dəstəklənməsi, vergi yükünün azaldılması...

Bax səh. 5

## Bundestaq yeni seçkilərə doğru

Bax səh. 6

## Azərbaycanın sülh şərtləri təsdiqlənir...

Bax səh. 6

## Milli sərvətdən dayanıqlı inkişafa doğru

1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin (“Əsrin müqaviləsi”) imzalanması ölkəmizin iqtisadi-siyasi, sosial həyatında tarixi mərhələnin başlanğıcı oldu.

İmzalanmış neft-qaz müqavilələrinin fasiləsiz icrası yanacağın Qərbə ixracının başlanması ilə ölkəmizə böyük həcmdə gəlirlərin daxil olmasını, həmçinin dünya birliyində öz layiqli yerini tutmasını təmin etdi.

Neft gəlirlərinin daxil olmasından sonra növbəti addım ehtiyatların etibarlı və etimadlı bir ünvanda saxlanması ilə bağlı qərarın qəbul edilməsi idi. Həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Birinci vitse-prezidenti vəzifəsində çalışan istedadlı cavan kadr - Cənab İlham Əliyevin xarici ölkələrin ən mütərəqqi suveren fondlarının təcrübəsini dərindən mənimsənilərək ölkəmizdə tətbiqi ideyası köməyə çatdı. İlham Əliyevin təklifi ilə dünyada bu sahədə mövcud analoji suveren fondların təcrübələri öyrənildi və mükəmməl...

Bax səh. 5



## Dünyada ən böyük hərbi büdcə

Bax səh. 7



## Qərbi Afrika Birliyinin sıraları seyrəlir

Bax səh. 7

# Rusiya Prezidenti təyyarə qəzasına görə üzrxahlığını ifadə edib



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Vladimir Putin dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyasının hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini, yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini qeyd edib. Dövlətimizin başçısı təyyarənin gövdəsində çoxsaylı dəliklərin olmasının, hələ havada olarkən sərnişinlərin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmalarının, bu xüsusda, sağ qalan təyyarə bələdçilərinin və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulayıb.

Söhbət zamanı dövlət başçıları bu faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılması, günahkarların məsuliyyətə cəlb olunmasını müzakirə ediblər.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin təklifi ilə bu qəzanın səbəblərinin hərtərəfli araşdırılması üçün beynəlxalq ekspertlərdən ibarət heyət təşkil edilib və bu heyət artıq fəaliyyətə başlayıb. Dövlət başçıları, həmçinin faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulayıblar.

# Dövlət başçısı Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub



Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub.

Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına nəqliyyat vasitələrinin texniki göstəriciləri və imkanları barədə məlumat verib. Bildirilib ki, burada "IVECO" və "Dongfeng" şirkətlərinin istehsalı olan müxtəlif kommunal işlər üçün nəzərdə tutulan nəqliyyat vasitələri və texnikalar var. Nəqliyyat vasitələrinin əksəriyyəti tam elektrikli olmaqla, ekoloji cəhətdən ətraf mühitə ziyan vurmadan çalışır.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanın hər bir bölgəsində, o cümlədən Bakıda ardıcıl olaraq yenidənqurma və abadlaşdırma işləri aparılır, digər şəhərlərimizdə olduğu kimi, paytaxtda da ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Bütün bunlar həm şəhər sakinləri, həm də paytaxtımızın qonaqları tərəfindən böyük məmnunluqla qarşılanır. Təsadüfi deyil ki, Bakıya gələn turistlər paytaxtımızın dünyanın ən təmiz və gözəl şəhərlərindən biri olduğunu qeyd edirlər.

# 2025: Konstitusiya və Suverenlik İli!

## Azərbaycanın uğurlu inkişafının ən mühüm təminatı



Müasir dövrdə ictimai həyatın, cəmiyyətin harmonik və sabit inkişafının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətləri sayılır. Azərbaycanda mövcud olan mütərəqqi inkişaf proseslərinin, novatorluğun, davamlı islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı bütövlükdə, sabit inkişafın əsas təməl prinsipidir. Yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilən, son 4 ildə bölgədə mühüm siyasi-iqtisadi reallıqlar formalaşdıran Azərbaycan özünün inkişaf strategiyasını ən vacib parametrlər üzərində formalaşdırır.

Vətən müharibəsindəki qələbə, antiterror tədbirləri nəticəsində suverenliyimizin bərpa olunması müasir Azərbaycanın yeni inkişaf mərhələsini formalaşdırır. Atdığı addımlarda, apardığı uğurlu siyasətdə hər zaman beynəlxalq hüquqa və ədalətə, Konstitusiyaya, bir sözlə ali hüquqa və qanuna əsaslanan dövlətimiz bütün dünyaya nümunə təqdim edir.

**İlk milli Konstitusiyamızın qəbulu...**

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi hələ SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. SSRİ dövrünün son Konstitusiyası isə 1978-ci ilin aprelin 21-də qəbul edilmiş qanunvericilik toplusudur.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin yarıtmaz fəaliyyəti ölkədə Konstitusiya qəbulunu mümkünsüz etdi. Həmin illərdə dövlətin daxilindəki anarxiya, özbaşınalıq, dövlət idarəçiliyi mexanizmlərinin formalaşdırılmaması vətəndaşların azad, hüquqi təminatını da təhlükə qarşısında qoyurdu. 1995-ci il noyabr ayının 12-də ilk milli Konstitusiyamızın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri kimi tarixə yazıldı. Konstitusiyamızda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Azərbaycan Respublikasının Konstitusiyasında BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları əhatəli şəkildə təsbit olunub.

**Müasir çağırışlara əsaslanan əlavə və dəyişikliklər ...**

Müstəqil Azərbaycanın Əsas Qanunu eyni zamanda, milli inkişafın dərin siyasi-hüquqi əsaslarını formalaşdırdı. İlk milli Konstitusiyamızın Azərbaycanın hüquqi, demokratik dövlət kimi formalaşmasındakı rolu əvəzolunmazdır. Konstitusiya ölkəmizdə hakimiyyət bölgüsünü təmin etməklə yanaşı, subyektlərin fəaliyyətinə hüquqi zəmində əlverişli şərait yaradıb. Bütün bunların fonunda isə həyata keçirilən islahatların davamlılığını təmin etmək mümkün oldu.

Sonrakı illərdə Kosntitusiyaya edilən əlavə və dəyişikliklər müasir çağırışları və yenilikləri özündə əks etidirməkdədir. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il, 26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsi - referendumlarda həyata keçirilən əlavə və dəyişikliklər qanunvericilik bazasının zənginləşməsi, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsi, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması istiqamətlərində müstəsna əhəmiyyət kəsb etdi.

**Suverenliyimizin bərpası yeni inkişaf mərhələsi üçün başlanğıc yaradır...**

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi göstərilir. 30 ildən artıq davam etmiş erməni işğalı suveren hüquqlarımızın ölkəmizin bütün ərazilərində tətbiqini mümkünsüz etmişdi. Torpaqlarımızın 20 faizə yaxınını 30 il ərzində işğal altında saxlayan Ermənistan beynəlxalq züququ pozmuşdu. Müstəqillik dövründən indiyə qədər ölkəmiz bütün daxili, hərbi resurslarını bu problemin həllinə, Konstitusiya ilə bəyan edilmiş suveren hüquqlarımızın bərpasına səfərbər etdi. Bu mənada, Ermənistanın işğalçılıq siyasətinə qarşı aparılan mübarizə həm də Konstitusiyanın müddəalarının bərpası uğrunda aparılan bir mübarizə idi.

Ötən müddət ərzində ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi müasir Azərbaycan tarixinin ən mühüm hadisəsinə çevrildi. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş Zəfər, eləcə də 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu isə həm də o demək idi ki, artıq Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar olub. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilib.

Qarşıdan gələn 2025-ci ilin Azərbaycanın inkişaf tarixində özünəməxsus yer tutacağına əminlik böyükdür. Bu mənada, Prezident İlham Əliyevin imzaladığı Sərəncam xüsusi əhəmiyyət kəsb edir. Suveren, bütöv Azərbaycanı yeni dövrdə yeni inkişaf mərhələsi gözləyir...

***Pərviz SADAYOĞLU***

# Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**28 dekabr 2024-cü il**

# Volodimir Zelenski Prezidenti İlham Əliyevə zəng edib

Ukrayna Prezidenti Volodimir Zelenski dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Volodimir Zelenski dekabrın 25-də Bakı-Qroznı istiqamətində uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çox sayda insanın həlak olması ilə bağlı Prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığını çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını diləyib. Dövlətimizin başçısı göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

# YAP Təftiş Komissiyasının iclası keçirilib




Dekabrın 28-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının onlayn formatda növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib. İclasda "YAP Təftiş Komissiyasının 2025-ci ilin I yarımilliyi üzrə iş planı", "YAP Təftiş Komissiyasının 2025-ci il ilin birinci yarımilliyi üzrə YAP yerli təşkilat aparatlarında Auditorlar Palatasının mütəxəssislərinin iştirakı ilə təftişin aparılmasına dair təftiş cədvəli" və cari məsələlər müzakirə olunub. YAP Təftiş Komissiyasının üzvləri gündəlikdə duran məsələlərə münasibət bildiriblər.

# Diplomatik uğurlar ili...

## 2024-cü ildə xarici siyasət kursumuz nə ilə yadda qaldı?

2024-cü ilin bitməsinə sayılı günlər qalıb. Bu il ölkəmiz üçün bir çox mənalarda həm yaddaqalanlığı ilə seçildi, həm də uğurların sayına görə əvvəlkilərdən kəskin şəkildə fərqləndi. Bir məqamı qeyd etmək kifayətdir ki, Azərbaycanın 2024-cü ildə beynəlxalq aləmdəki nüfuzu daha da artdı - ölkəmiz COP29 kimi qlobal və nüfuzlu bir tədbirə ev sahibliyi etdi. Rəsmi Bakı bütün dünyaya gələcək "yaşıl hədəf"lərin müzakirəsi üçün geniş platforma yaratdı.

Arxada qoymağa hazırlaşdığımız ildə xarici siyasət sferasındakı nailiyyətlərimiz də böyükdür. İl ərzində Azərbaycan çoxvektorlu xarici siyasətini uğurla davam etdirib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüsləri və strateji addımları nəticəsində ölkəmizin beynəlxalq arenada mövqeyi daha da güclənib. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığını dərinləşdirərək regional və qlobal məkanda önəmli tərəfdaşa çevrilib. Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, görüşləri və bu çərçivədə imzalanan sənədlər mühüm rol oynayıb. İmzalanan çoxsaylı sənədlər, memorandumlar, qarşılıqlı əlaqələrin gücləndirilməsinə xidmət edən bəyannamələr Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artırıb.




## Xarici səfərlər: Azərbaycan beynəlxalq aləmdə yaxın tərəfdaş kimi qəbul edilir

İlk olaraq qeyd edək ki, Azərbaycan Prezidenti 2024-cü ildə bu günə kimi 15 xarici səfər edib:

- 16 Fevral Almaniya: Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün;
- 18 fevral Türkiyə: Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə rəsmi səfər;
- 22 aprel Rusiya: Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfər;
- 25 aprel Almaniya: Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün;
- 7 iyun Misir: Misir Ərəb Respublikasına rəsmi səfər;
- 10 iyun Türkiyə: Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfər;
- 3 iyul Qazaxıstan: Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün;
- 11 iyul Pakistan: Pakistan İslam Respublikasına dövlət səfəri;
- 18 iyul Böyük Britaniya: Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün;
- 8 avqust Qazaxıstan: Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün;
- 22 avqust Özbəkistan: Özbəkistan Respublikasına dövlət səfəri;
- 4 sentyabr İtaliya: İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfər;
- 7 oktyabr Rusiya: MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün;
- 23 oktyabr Rusiya: Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün;
- 6 noyabr Qırğızıstan: TDT 11 Zirvə görüşü.

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev il ərzində iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərdə olub. Bu səfərlər zamanı Azərbaycan ilə müvafiq dövlətlər arasında siyasi, iqtisadi-ticari, kommunikasiyalar, mədəniyyət, elm-təhsil və digər sahələrə aid mühüm sənədlər imzalanıb, Cənubi Qafqazda sülhün təmin edilməsi istiqamətində dövlətimiz tərəfindən atılan addımlar və ölkəmizin geosiyasi rolu məsələləri müzakirə olunub. Azərbaycan Prezidentinə Kazan şəhərində Tatarıstanın ali dövlət mükafatı olan "Dostluq" ordeni, Bişkekdə isə "Çingiz Aytmatov" ordeni təqdim olunub. Bu mükafatlar dövlətimizin başçısının beynəlxalq əlaqələrdəki uğurlarının və regionlararası əməkdaşlığa, mədəniyyətlərarası dialoqun inkişafına, humanist dəyərlərin təbliğinə verdiyi töhfələrin əyani təsdiqi, beynəlxalq səviyyədə böyük hörmətin və ehtiramın ifadəsidir.

Diqqət yetirsək, bu səfərlərin mühüm əksəriyyəti məhz qlobal miqyaslı tədbirlərdə iştirak etmək üçün reallaşdırılıb. Bu isə ölkəmizə beynəlxalq aləmdə verilən dəyərin, Azərbaycanın xarici sferada etibarlı tərəfdaş qismində qəbul edilməsinin göstəricisidir. Dövlətimizin başçısının cari ildə ilk xarici səfəri qlobal Münxen Təhlükəsizlik Konfransında iştirak məqsədilə reallaşıb - üç gün davam edən səfər çərçivəsində Azərbaycan Prezidenti 24 görüş keçirib. Bu görüşlərin məhz qarşı tərəflərin müraciətlərinə əsasən keçirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun və təşəbbüslərinin qlobal miqyasda qəbul edilməsinin göstəricisidir. Görüşlərdə Azərbaycanın sülh təşəbbüsləri, enerji təhlükəsizliyindəki rolu və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə edilib. Həmin görüşlərdən biri də Ermənistanın baş naziri ilə ikitərəfli görüşdür ki, burada iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olunub. Prezident İlham Əliyevin Münxen səfəri Azərbaycan diplomatiyasının qlobal səviyyədə mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib.







## Beynəlxalq sənədlər: Bakının artan nüfuzu regionda mövqelərin uzlaşdırıcısı kimi əhəmiyyətini yüksəldir

2024-cü il Azərbaycanın qlobal əməkdaşlıq müstəvisindəki real və fəal addımları ilə də yadda qalıb. Ölkəmiz il ərzində bir çox ciddi strateji əlaqələrin qurulması istiqamətində sənədlər imzalayıb.

- Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun iştirakı ilə "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə" imzalanıb;
- Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun iştirakı ilə "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" imzalanaıb;
- Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin iştirakı ilə "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə imzalanıb;
- Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb;
- İyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub;
- İyulun 6-da Şuşada baş tutmuş Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü çərçivəsində TDT üzvü ölkələr tərəfindən "Qarabağ Bəyannaməsi" imzalanıb;
- Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzalanıb.

İmzalanan müqavilələr ayrı-ayrılıqda ölkəmizin beynəlxalq siyasi arenadakı mühüm və strateji göstəricisi kimi çıxış etməkdədir. Məsələn, Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannaməyə nəzər saldıqda, sənədin iki ölkə arasındakı münasibətlər sisteminin bütün sferasını əhatə etməsi diqqəti cəlb edir. Burada siyasi - iqtisadi bloklar, ikitərəfli münasibətlərin möhkəmlənməsi, beynəlxalq münasibətlər sisteminə baxış, qlobal proseslərdə əməkdaşlıq, maraqların uzlaşdırılması, qarşılıqlı şəkildə dövlət mənafeyinin qorunması və ən əsası təhlükəsizlik kimi strateji məqamlar yer almaqdadır. Sənəddə bildirilir ki, hər iki ölkə ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər. Azərbaycan tərəfi "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir. Çin tərəfi də öz növbəsində Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir.

Eyni zamanda, Şuşada imzalanan "Qarabağ Bəyannaməsi" də özünün miqyası və strateji əhəmiyyətinə görə seçilir. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan Türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir. Bəyannamədə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyulur. Vurğlanmalıdır ki, bu strateji əhəmiyyətli planlar və perspektivlər məhz Azərbaycanın bölgədə formalaşdırdığı təhlükəsizlik arxitekturasına, yeni siyasi-iqtisadi reallıqlara əsaslanır. Eyni zamanda, Azərbaycanın artan nüfuzu ölkəmizin regionda mövqelərin uzlaşdırıcısı kimi əhəmiyyətini də yüksəldib.



## Sülh yolunda: İkitərəfli görüşlər, nəticələr, uğurlar...

2024-cü ilin siyasi yekunlarına, xüsusilə xarici siyasət sferasındakı uğurlara nəzər salan zaman, ən mühüm məsələ - Ermənistan ilə Azərbaycan arasında münasibətlərin nizamlanması prosesi, başqa sözlə sülh prosesi diqqətdən yayına bilməz. 2024-cü il bu mənada, xüsusilə dönüş ili kimi yadda qalacaq - məhz, bu il ərzində Ermənistan ilə ikitərəfli danışıqlar prosesinin əsası qoyuldu, iki dövlətin XİN başçıları arasında təkbətək görüşlər keçirildi, hər iki dövlətin müvafiq delimitasiya və demarkasiya komissiyalarının təmasları reallaşdı, hətta birgə Əsasnamə qəbul edildi. Aprelin 19-da isə tarixi razılaşma əldə olundu: delimitasitya komissiyaları arasında baş tutmuş 8-ci görüşdə tərəflər delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırdılar. Başqa sözlə, keçən əsrin 90-cı illərinin əvvəllərindən Ermənistanın işğalı altında olan 4 kənd Azərbaycana qaytarıldı.

Paralel olaraq il ərzində sülh prosesi də mühüm bir yol qət edib - Azərbaycanın təşəbbüsü ilə ikitərəfli formata keçən görüşlər və təkliflərin mübadiləsi nəticəsində proses sona yaxınlaşır. Artıq 17 məsələdən 15-i ətrafında razılaşma əldə olunub. Bu isə 2025-ci ilin sülh ili olacağını deməyə əsas verir. Bunun üçün Ermənistanın siyasi manipulyasiyalardan əl çəkməsi. Siyasi qətiyyət nümayiş etdirməsi gərəkir...

> **İmzalanan müqavilələr ayrı-ayrılıqda ölkəmizin beynəlxalq siyasi arenadakı mühüm və strateji göstəricisi kimi çıxış etməkdədir. Məsələn, Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannaməyə nəzər saldıqda, sənədin iki ölkə arasındakı münasibətlər sisteminin bütün sferasını əhatə etməsi diqqəti cəlb edir.**

> **İl ərzində sülh prosesi də mühüm bir yol qət edib - Azərbaycanın təşəbbüsü ilə ikitərəfli formata keçən görüşlər və təkliflərin mübadiləsi nəticəsində proses sona yaxınlaşır. Artıq 17 məsələdən 15-i ətrafında razılaşma əldə olunub. Bu isə 2025-ci ilin sülh ili olacağını deməyə əsas verir...**



## Qonşularla münasibət: strateji məqamlar, əməkdaşlıqlar, regional təhlükəsizlik...

2024-cü ildə qonşu dövlətlərlə münasibətlər yüksək əməkdaşlıq ruhunda davam etdirilib. Cari il ərzində Azərbaycan region ölkələri ilə bir sıra əhəmiyyətli hadisələr və əməkdaşlıqlar həyata keçirib.

Rusiya ilə əlaqələr yüksək strateji əməkdaşlıq səviyyəsində davam etməkdədir. Vurğulandığı kimi il ərzində Azərbaycan Prezidenti 3 dəfə Rusiya Federasiyasında səfərdə olub. Bu səfərlər zamanı isə Cənubi Qafqazda Azərbaycanın əsas rol oynadığı yeni təhlükəsizlik sisteminin yaradılması, ikitərəfli əlaqələrin inkişafı məsələləri müzakirə edilib.

İran ilə əlaqələrdə iqtisadi və mədəni sahələrdə əməkdaşlığın davam etdirilməsi müzakirə edilib. Xüsusilə enerji və nəqliyyat layihələrində birgə fəaliyyətlər həyata keçirilib.

Gürcüstan ilə münasibətlərdə il ərzində ticarət və enerji sahələrində əməkdaşlıq gücləndirilib, regional layihələrdə birgə iştirak davam etdirilib.

Azərbaycanın strateji müttəfi olan qardaş Türkiyə ilə 2024-cü il ərzində strateji tərəfdaşlıq çərçivəsində bir sıra hərbi və iqtisadi layihələr həyata keçirilib, ortaq təlimlər və investisiya layihələri reallaşdırılıb.

Qonşu dövlətlərlə münasibətlərin inkişafı məsələsinə toxunduqda "3+3" formatında (Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya və Türkiyə) regional əməkdaşlıq platformasına toxunmamaq mümkün deyil. Bu ilin oktyabrın 18-də İstanbulda baş tutan platforma üzrə üçüncü birgə iclasda təhlükəsizlik (Terrorizm və narkotik qaçaqmalçılığı kimi regional təhdidlərə qarşı birgə mübarizə yolları nəzərdən keçirilib), iqtisadiyyat (Enerji sektorunda əməkdaşlıq və nəqliyyat-logistika məsələləri üzrə birgə layihələrin həyata keçirilməsi müzakirə olunub), humanitar əlaqələr (Mədəni mübadilələrin təşviqi və humanitar sahədə əməkdaşlığın gücləndirilməsi məsələləri diqqət mərkəzində olub) haqqında fikir mübadiləsi aparılıb. Toplantı iştirakçıları regional əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müntəzəm görüşlərin əhəmiyyətini vurğulayıblar.

Beləliklə, Azərbaycan 2024-cü ildə özünün xarici siyasətində mühüm və olduqca effektiv, davamlı xətti daha da inkişaf etdirib. Bu isə qarşıdan gələn 2025-ci il üçün olduqca böyük perspektivlər vəd edir...

> **Səfərlərin mühüm əksəriyyəti qlobal miqyaslı tədbirlərdə iştirak üçün reallaşdırılıb. Bu isə ölkəmizə beynəlxalq aləmdə verilən dəyərin, Azərbaycanın xarici sferada etibarlı tərəfdaş qismində qəbul edilməsinin göstəricisidir.**

*Pərviz SADAYOĞLU*

# Sosial islahatların uğurları

Respublikamızda sosial sfera dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. “Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”. Prezident İlham Əliyevin bu fikirləri Onun tapşırıqları əsasında ardıcıllıqla həyata keçirilən sosial islahatlarda öz təsdiqini tapır.

Buna nümunə olaraq dövlətimizin başçısının Fərman və Sərəncamları əsasında 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunmasını, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılmasını göstərmək olar. Həmin dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 3 dəfə, əmək müqavilələrinin sayında 609 min (48 faiz) artımın olduğunu görürük. Respublikamızda sosial məzmunlu islahatlar artıq sonuna yaxınlaşdığımız 2024-cü ildə də geniş miqyasda davam etdirilib.

## Yeni sosial paket

Ölkə vətəndaşları 2024-cü ilin son günlərində yeni sosial paketin elan edilməsi xəbərinə sevindilər. Prezident İlham Əliyevin imzaladığı yeni “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” 23 dekabr 2024-cü il tarixli Sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha təsdiqləyir. Yeni Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

O cümlədən cari ilin 11 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz və ya 711 mln. manat çox olmaqla 5 mlrd. 949 mln. manat vəsait yönəldilib. Həmin dövrdə ölkə üzrə pensiyaların orta aylıq məbləği 13 faiz artaraq 494 manata, həmçinin yaşa görə pensiyaların orta aylıq məbləği 12 faiz artaraq 527 manata çatıb.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək. Göründüyü kimi, müavinət və təqaüd ödənişlərində artım dinamikası da gələn il davam edəcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılması təmin ediləcək. Bu da həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaşın 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımların baş verməsinə imkan yaradacaq.



Bu yeni sosial paket çərçivəsində növbəti ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq və həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

Dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqəti cəlb edir. Məsələn, bu xərclər 2021-ci ildəki 10,3 mlrd. manatdan 2024-cü il üçün 15,5 mlrd. manata çatıb və 2025-ci ilin büdcə layihəsində 16,9 mlrd. manat nəzərdə tutulur. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 mlrd. və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqamətləri olduğunu bir daha təsdiqləyir.

## Əlilliyi olan şəxslərə xüsusi qayğı

Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2024-cü ildə 2,1 dəfə və ya 1,3 mlrd. manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 mlrd. manat təşkil edirdisə, hazırda 2,5 mlrd. manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən cari ildə 130-a çatdırılıb. O cümlədən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-noyabr aylarında əlilliyi olan şəxsləri 87,7 min reabilitasiya vasitəsi ilə təmin edib.

Onlardan 5,8 mini təkərli oturacaq (o cümlədən 238-i mühərrikli təkərli oturacaq), 1,8 mini aşağı və yuxarı ətraf protezi, habelə 2,1 mini eşitmə aparatı, 2,6 mini qoltuqaltı və dirsəkaltı ağac, 159-u korset olub. Həmin şəxslərə 3,1 min cüt protez ayaqqabı və 5,9 min ortopedik ayaqqabı və s. reabilitasiya vasitələri təqdim olunub.

Bu ilin 11 ayı ərzində, ümumilikdə, 11,2 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə təmin edilib, 113 min şəxsə isə reabilitasiya xidmətləri göstərilib.

Onlardan 61,1 mini ambulator, 26,5 mini stasionar və icma əsaslı, digərləri isə səyyar və onlayn formada, sosial-psixoloji, ippoterapiya istiqamətləri üzrə reabilitasiya xidmətləri ilə təmin olunub.







## Şəhid ailələrinin, qazilərin mənzil təminatı

Respublikamızda Prezident İlham Əliyevin şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısının nəticəsi olaraq həmin kateqoriyalara aid vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə aparılan işlərin bir istiqaməti də onların mənzil və fərdi evlərlə təminatıdır. Sabiq Prezident Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılan proqram ildən-ilə daha da genişləndirilir. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram postmüharibə dövründə 5 dəfə genişlənib.

Müvafiq kateqoriyadan olan vətəndaşlara bu günlərdə daha 150 mənzil verilməklə cari ilin ötən dövründə artıq 650 mənzil təqdim edilib. İlin sonunadək şəhid ailələrinə və qazilərə daha 150 mənzil veriləcək. Beləliklə, postmüharibə dövründə 6800-dək, ümumilikdə, ötən dövrdə 16 minədək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.




Həmçinin daha 33 avtomobil verilməklə, növbədə dayanan bütün müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı başa çatıb. Bu kateqoriyaya aid şəxslərə postmüharibə dövründə 567, ümumən 7,7 min avtomobil verilib.

## 174 min pensiya, müavinət və təqaüd proaktiv qaydada təyin olunub

Ölkədə aparılan sosial islahatların əsas hədəflərindən biri də bu sahədə şəffaf, çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə mühüm uğur olan DOST Konsepsiyasının davamı olaraq, dövlət sosial xidmətlərinin geniş miqyasda elektronlaşdırılması təmin olunub və bu gün Əmək və Əhalinin Soaial Müdafiəsi Nazirliyinin 160 xidmətindən 145-dən çoxu (90 faizdən çoxu) artıq rəqəmsal platformadan təqdim edilir. 30-dan çox e-arayış xidməti, həmçinin 2019-cu ilin əvvəlindən 50-dən çox proaktiv təyinat mexanizmləri, həmin il ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə “Əmək və Məşğulluq” altsistemi işə salınıb.

Yaradılan müasir infrastruktur sayəsində bu ilin 11 ayında 174 min pensiya, müavinət və təqaüd təyinatı elektron sistemlər üzərindən proaktiv qaydada həyata keçirilib. Onlardan 33 mini pensiya, 141 mini müavinət və təqaüdlər olub.

Qeyd edək ki, proaktiv təyinat mexanizmi vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq sosial ödənişlərin təyinatının e-sistem üzərindən avtomatik şəkildə həyata keçirilməsinə imkan verir.

## Geniş məşğulluq proqramı

Ölkəmizdə dərinməzmunlu sosial siyasətin diqqət mərkəzində saxlanılan mühüm istiqamətlərindən biri də fəal məşğul əhalinin əhatə dairəsinin genişləndirilməsidir. Dövlət Məşğulluq Agentliyi bu ilin yanvar-noyabr aylarında 366,9 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 149 min şəxs münasib işlərlə təmin olunub, 16,1 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. Cari ilin 11 ayında 14,5 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 187,3 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

Eyni zamanda, işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması tədbirləri də davam etdirilir. İndiyədək bəhs olunan ərazilərə 10 minə yaxın vətəndaşmızın köçürülməsi təmin edilib. 2026-cı ildə bu rəqəmin dəfələrlə artaraq 140 minə çatacağı gözlənilir. Məşğulluq proqramı da bu dinamikaya uyğun hazırlanıb. İşğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərdən artıq 4 minədək şəxsin məşğulluğu təmin edilib. Eyni zamanda, sakinlər üçün peşə hazırlığı kurslarının təşkili işləri aparılır. Artıq 125 sakin işəgötürənlərlə birgə təşkil olunan peşə hazırlığı kurslarına cəlb edilib. Doğma yurdlarına qayıdan vətəndaşlardan 145 sakin üçün isə özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar da yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə əmək yarmarkalarının təşkili də davam etdirilir. Cari ildə həmin ərazilərdə daha 6 yarmarka keçirilib.

## Avropa üçün yaxşı təcrübə - 110-dan çox beynəlxalq mükafat

Azərbaycanda uğurlu sosial layihələrdən biri də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə DOST mərkəzlərinin yaradılmasıdır. Vətəndaşlar üçün əlçatan olan bu şəbəkə getdikcə genişlənir. Prezident İlham Əliyevin Fərmanı ilə 2019-cu ildə DOST Agentliyi, Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində “Smart DOST” xidmət məntəqəsi, 2024-cü ilin iyun ayında Qarabağ Regional DOST Mərkəzinin Şuşada filialı açılıb. DOST Konsepsiyası 15 istiqamət üzrə 160 sosial xidmətin əhaliyə vahid platformadan, “bir pəncərə”dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan yaradıb. 2024-cü ilin yanvar-noyabr aylarında DOST mərkəzlərində 850 min vətəndaşa xidmət göstərilib. DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,4 faiz təşkil edir.

DOST konsepsiyası artıq Azərbaycanın dünyada tanınan intellektual brendlərindən biridir. İndiyədək bu konsepsiya 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Onlardan 12-si “Good practice awards of Europe”, yəni, “Avropa üçün yaxşı təcrübə mükafatı”dır. Ümumilikdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq son illər ölkəmizdə aparılan sosial islahatların uğurları mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alır. Təkcə 2024-cü ildə bu uğurlar 110-dan çox beynəlxalq mükafatla təltif edilib.

## Heydər Əliyev Fondunun sosial siyasətdə fəal iştirakçılığı

Ölkəmizin dərinməzmunlu sosial siyasətindən bəhs edərkən burada Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəal iştirakçılığını xüsusi vurğulamaq lazımdır. Mehriban xanım Əliyevanın şəhid ailələrinə, qazilərə, digər həssas qruplardan olan insanlara, uşaqlara son dərəcə həssas yanaşması hər kəsə bəllidir. Onun təşəbbüsü ilə yaradılan və 2021-ci ilin oktyabr ayında açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Cənubi Qafqazda ilk və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı olmaqla, bu sahədə mühüm rola malikdir. Burada ötən dövrdə 600-ə yaxın şəxsə xidmət göstərilib. Bu vaxtadək mərkəzdə həssas əhali qruplarından olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün 100-dən çox tədbir təşkil olunub. Burada benefisiarlar müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlimlərə cəlb edilməklə, onlara sosial pedaqoji və psixoloji xidmətlər də göstərilir. Ötən ilin noyabr ayında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllıda “DOST EVİ” filialının da açılışı olub. Eyni zamanda, Heydər Əliyev Fondunun sosial layihələrindən biri kimi ötən dövrdə ölkəmizin 3 bölgəsində əlilliyi olan şəxslərin İKT vasitəsilə məlumat əldə etmək və biliklərini artırmaq üçün Regional İnformasiya Mərkəzləri də yaradılıb.

Qeyd edək ki, bir qədər bundan əvvəl əlilliyi olan şəxslərin XII Ümumrespublika yaradıcılıq sərgi-müsabiqəsi başa çatıb. 3 dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər günündə sərgi-müsabiqəsinin qaliblərinə mükafatlar təqdim edilib. Tədbirdə vurğulanıb ki, belə bir ümumrespublika səviyyəli yaradıcılıq sərgi-müsabiqəsinin təşkili də əlilliyi olan şəxslərə diqqət və qayğının daha bir nümunəsi olmaqla, onların yaradıcılıq potensialının dəstəklənməsi və cəmiyyətə tanıdılması məqsədi daşıyır. Sərgi-müsabiqədə Bakı və bölgələr üzrə 195 nəfər əlilliyi olan şəxsin 2500 əl işi təqdim edilib. Onların sırasına rəsm, bədii oyma, bədii tikmə əsərləri, xalça və xalçaçılıq məmulatları, toxuma, metal və daş üzərində işlər və s. daxildir.

İl ərzində Mehriban xanım Əliyevanın və Fondunun vitse-prezidenti Leyla Əliyevanın həssas qruplardan olan insanlara, o cümlədən də qayğıya ehtiyacı olan uşaqlarla çoxsaylı görüşləri baş tutub. Leyla Əliyeva dekabrın 10-da Bakının Mərdəkan qəsəbəsində yerləşən 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət edib. Müəssisədə 150-dək uşaq dövlət himayəsində yaşamaqla, onlara reabilitasiya xidmətləri də təqdim olunur. Leyla Əliyeva müəssisədə uşaqların bacarıqlarının artırılması üçün yaradılmış emalatxana, əmək terapiyası, məşğələ, aktiv terapiya, musiqi, idman otaqları ilə tanış olub. Uşaqlar rəqslər ifa edib, qonaqlarla birgə kətan üzərində rəsm çəkiblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti paytaxtın Ramana qəsəbəsindəki Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində də olub. Bu il müəssisədə əlilliyi olan 15-29 yaşlı 500 şəxsə xidmət göstərilir. Mərkəzə qəbul edilənlər dövlət hesabına yataqxana, yemək və reabilitasiya xidmətləri ilə də təmin olunurlar. Leyla Əliyeva Mərkəzdə peşə təlimi prosesi ilə tanış olub, əlilliyi olan gənclərin stolüstü oyunlarını izləyib, boccia üzrə milli komandanın üzvləri ilə görüşüb. Benefisiarlar Azərbaycanın Dövlət Himnini jest dilində ifa ediblər. Sonra onların əl işlərindən ibarət geyimlərin moda nümayişi olub. Təlim kursunda olan gənclər “İnnabı” rəqsini ifa ediblər. Leyla Əliyeva da onlarla birgə rəqs edib. Əlilliyi olan şəxslər, həmçinin mahnılar, Leyla Əliyevanın şeirlərini səsləndiriblər. Heydər Əliyev Fondunun vitse-prezidenti tərəfindən hər iki sosial xidmət müəssisəsinə hədiyyələr təqdim edilib.

*Mübariz ABDULLAYEV*

# Milli sərvətdən dayanıqlı inkişafa doğru

## Dövlət Neft Fondunun yaradılmasından 25 il keçir

1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin ("Əsrin müqaviləsi") imzalanması ölkəmizin iqtisadi-siyasi, sosial həyatında tarixi mərhələnin başlanğıcı oldu.

İmzalanmış neft-qaz müqavilələrinin fasiləsiz icrası yanacağın Qərbə ixracının başlanması ilə ölkəmizə böyük həcmdə gəlirlərin daxil olmasını, həmçinin dünya birliyində öz layiqli yerini tutmasını təmin etdi.

Neft gəlirlərinin daxil olmasından sonra növbəti addım ehtiyatların etibarlı və etimadlı bir ünvanda saxlanması ilə bağlı qərarın qəbul edilməsi idi. Həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Birinci vitse-prezidenti vəzifəsində çalışan istedadlı cavan kadr - Cənab İlham Əliyevin xarici ölkələrin ən mütərəqqi suveren fondlarının təcrübəsini dərindən mənimsənilərək ölkəmizdə tətbiqi ideyası köməyə çatdı. İlham Əliyevin təklifi ilə dünyada bu sahədə mövcud analoji suveren fondların təcrübələri öyrənildi və mükəmməl bir model ortaya qoyuldu. Ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edildi.

Fondun yaradılması fəlsəfəsinin əsasını neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi, bugünkü və gələcək nəsillərin daimi gəlir mənbəyinə

*"Dövlət Neft Fondunun yaradılması tarixi hadisə idi. Çünki bu Fond vasitəsilə həm büdcəmizə dəstək göstərilir, həm sosial məsələlərin həlli təşkil edilir, ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir və ilk növbədə, məcburi köçkünlərin problemləri həll olunur".*

***Prezident İlham Əliyev***

çevrilməsi təşkil edir. ARDNF-nin fəaliyyəti ölkə qarşısındakı aşağıdakı mühüm vəzifələrin həllinə yönəldilib.

- Ölkədə makroiqtisadi sabitliyin qorunması, maliyyə-vergi intizamının təmin edilməsi, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsi;

- Ölkənin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsi;

- Neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitin toplanması.



### Regional və beynəlxalq layihələrin maliyyə təminatçısı...

Dövlət Neft Fondunun vəsaitlərindən ölkəmizin sosial-iqtisadi tərəqqisi naminə bir sıra mühüm layihələrin maliyyələşdirilməsi də həyata keçirilib və hazırda ölkə əhəmiyyətli bəzi layihələrin maliyyələşdirilməsi davam edir. Belə ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində və "Azəri-Çıraq-Günəşli" üzrə Azərbaycanın iştirak paylarının, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi, Oğuz-Qəbələ su kəmərinin çəkilməsi, Samur-Abşeron kanalının çəklişinin maliyyə təminatı, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi, "STAR" neft emalı kompleksinin tikintisi, "Cənub Qaz Dəhlizi" QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının təmin edilməsi ARDNF-nin aktivləri hesabına gerçəkləşib. Həmçinin Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsində də Fondun vəsaitlərindən istifadə edilib.

Fondun ən mühüm sosial-ictimai funksiyası qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həllində əsas maliyyə institutu olub.

Neft gəlirləri peşəkar ordunun güclənməsində və tarixi Zəfərdə də əsaslı rol oynadı. Neft Fondunun büdcəyə transfertlərinin əhəmiyyətli hissəsi torpaqlarımızın azad olunması üçün nümunəvi peşkar ordunun yaradılmasına sərf edildi. Həmçinin Fond Bakı şəhəri və respublikamızın müxtəlif rayonlarında keçmiş məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisini maliyyələşdirdi. Bu məqsədlər üçün 20 il ərzində, ümumilikdə 2,7 milyard manatdan çox vəsait ayrılıb. Həmin maliyyə təminatı sayəsində 76 qəsəbə, 347 bina, 40 mindən artıq ev və mənzil, 73 inzibati bina, 89 məktəb, 70 uşaq bağçası, 5 xəstəxana, 24 tibb məntəqəsi inşa edilərək istifadəyə verilib.




### Mükəmməl İnvestisiya Siyasəti

Dövlət başçısının 2011-ci il 27 oktyabr tarixli müvafiq fərmanı ilə Neft Fondunun "Valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edil-

**Neft gəlirləri peşəkar ordunun güclənməsində və tarixi Zəfərdə də əsaslı rol oynadı. Neft Fondunun büdcəyə transfertlərinin əhəmiyyətli hissəsi torpaqlarımızın azad olunması üçün nümunəvi peşkar ordunun yaradılmasına sərf edildi. Həmçinin Fond Bakı şəhəri və respublikamızın müxtəlif rayonlarında keçmiş məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisini maliyyələşdirdi**

məsi haqqında Qaydalara" dəyişikliklər edilmiş və Fondun Yeni İnvestisiya Siyasəti qəbul edilib. Bu strateji kurs Fondun valyuta vəsaitlərinin bu qaydalara uyğun olaraq idarə edilməsi Fondun valyuta vəsaitlərinin təhlükəsiz saxlanılması və səmərəli idarəetmə yolu ilə investisiya gəliri əldə etməklə davamlı artırılması məqsədlərini daşıyır. Həmçinin investisiya siyasəti ARDNF-nin investisiya portfelinin hədəflərini, proqnozlaşdırılan həcmini, valyuta tərkibini, vəsaitlərin strateji bölgüsünü, hədəf gəlirliliyi və bir sıra risk hədəflərini müəyyən edilir. Bu siyasətə uyğun olaraq Fondun investisiya portfelinə yeni maliyyə alətləri - səhmlər, qızıl, daşınmaz əmlak daxil edilib.

Dövlət Neft Fondu qlobal iqtisadi mühitdə və investisiya bazarlarında baş verən proseslərə uyğun olaraq öz investisiya siyasətini daim təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. Dövlət Neft Fondunun 2024-cü il üçüncü rübünə olan dövrdə investisiya portfelinin 67 faizini ABŞ dolları təşkil edib. İnvestisiya portfelinin 20,3 faizini avro, 5,1 faizini funt sterlinq, 2,6 faizini Çin yuanı, 1,4 faizini Yaponiya yeni, 3,6 faizini isə digər valyutalar təşkil edib.

Fondun ABŞ dolları portfelinin 10,8 milyard dollarlıq hissəsini (17,7 faiz) qızıl investisiyaları təşkil edib. Hesabat dövrünə ARDNF-in cəmi investisiya portfeli 61 190,8 milyon dollara bərabər olub.

### Yüksək investisya reytinqi

Fondun investisiya reytinqi beynəlxalq kredit agentlikləri "Standard & Poor's" tərəfindən verilmiş "A" və "Fitch" - "Moody's" tərəfindən verilmiş ya "A2" kredit reytinqindən ibarətdir.

Fondun vəsaitlərinin idarə edilməsindən əldə olunan gəlirləri artıq 15 milyard dolları ötüb. Fond, təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi müstəvidə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla, davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir. Hazırda aktivlərinin həcmi 61,7 milyard dollar təşkil edən Dövlət Neft Fondu Azərbaycanın davamlı inkişafına və iqtisadi potensialının möhkəmləndirilməsinə dəyərli töhfələr verən mühüm təşkilat kimi yeni çağırışlar əsasında maliyyə-investisiya uğurlarını davam etdirməkdədir.

**ELBRUS CƏFƏRLİ**




# Biznes mühitinin dəstəklənməsi, vergi yükünün azaldılması...

## Vergi Məcəlləsinə dəyişikliklər sahibkarlıq üçün yeni təşviqlərə yol açır

Prezident İlham Əliyev "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunu təsdiqləyib. Qanuna əsasən, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və investisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasından ibarətdir. Habelə, dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində vergi təşviqləri, bir sıra mədəniyyət sahələrinə vergi güzəştləri sənəddə öz əksini tapıb. Həmçinin Məcəllədə əksini tapan və 2025-ci il yanvarın 1-də müddəti bitən bir sıra güzəştlərin müddəti uzadılıb.

### İnvestisiya mühitinin yaxşılaşdırılması

Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər bir neçə istiqamətdə təsnifləşdirilə bilər. İlk istiqamət sahibkarlıq fəaliyyətinin təşviqi yolu ilə biznes icmasının vergi yükünün azaldılması, investisiya mühitinin yaxşılaşdırılması, eləcə də dövlət - özəl sektor tərəfdaşlığının müasir çərçivəsinin yaradılmasıdır. Bu hədəf üzrə vergi təşviqlərinin verilməsi nəzərdə tutulur. Təşviqlər bərpa olunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən layihələrə investisiya qoyuluşunu stimullaşdırmaq, uzunmüddətli dövrdə dövlətin maliyyə yükünü azaltmaq, istehlakçılar üçün tariflərin aşağı salınmasını və daxili istehsalın dəstəklənməsi məqsədilə vergi azadolmalarını əhatə edir. Bu istiqamətin digər bəndi kimi teatr, kino, muzey və simfonik orkestr fəaliyyəti üzrə vergi güzəştlərinin verilməsidir. Məqsəd qeyd edilən hər bir sahədə dövriyyələrin şəffaflaşdırılması və gəlirliliyin artırılmasıdır.



### Güzəşt və azadolmalar

Vergi Məcəlləsində dəyişikliklərin digər istiqaməti 2025-ci il yanvarın 1-dən müddəti bitən bir sıra güzəştlərin yenidən uzadılmasıdır ki, bu da birbaşa yerli istehsal və emal sektorlarında təmsil olunan biznes sektorunun mənafeyinə xidmət edir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması və həmin məhsulların qiymətlərinin artımının qarşısını almaq məqsədilə onların satışı üzrə ƏDV-nin ticarət əlavəsindən hesablanması rejiminin tətbiqi müddəti yenidən uzadılacaq. Bundan başqa, sahibkarlıq fəaliyyətinin, rəqabətədavamlı neft məhsulların istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədilə iri neft emalı zavodlarının modernləşdirilməsi işləri nəzərə alınaraq onlar tərəfindən avadanlıqların və materialların idxalı ƏDV-dən azad olunacaq. Bu, yanacaq bazarında əlverişli qiymət tariflərinin tənzimlənməsində mühüm rol oynayacaq. Ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsalı məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı da ƏDV-dən azad olunur. Həmçinin tibb turizminin inkişafı üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə "tax-free" rejimində ƏDV-nin geri qaytarılması, sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələri və əmlaklar üzrə vergi azadolunması da nəzərdə tutulub.

ƏDV ilə bağlı güzəşt paketində digər bir bölmə qeyri-rezidentin sifarişi əsasında gəmiçilik müəssisələri tərəfindən dəniz və su nəqliyyatı vasitələrinin, hidrotexniki qurğuların təmiri üzrə xidmətlərin sıfır dərəcə ilə vergiyə cəlb edilməsidir. Bundan başqa, xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri 2025-ci ilin yanvarın 1-dən etibarən 2 il müddətinə yol vergisindən azad ediləcək. Bu dəyişiklik investisiya mühitinin təkmilləşdirilməsi məqsədi daşımaqla, logistika şirkətlərinin xərclərinin azalması fonunda malların qiymət artımın qarşısının azalmasına səbəb ola bilər.

### Vergitutma bazasının genişləndirilməsi

Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin ikinci istiqaməti vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi ilə bağlıdır. Həmin istiqamət üzrə qiymətli daşların və metalların, onlardan hazırlanmış məmulatların, mədəniyyət məhsullarının, daşınar əmlakın alqı-satqısı üzrə ödənişlərin nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılacaq. Həmin əməliyyatları aparan şəxslərə maliyyə sanksiyası tətbiq olunacaq.



Dəyişikliklərdə bəzi xidmət sahələri üzrə mikro sahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin müvafiq tələblərlə şərtləndirilmədən tətbiqi, bina tikintisi sahəsində gəlirlərin və gəlirdən çıxılan xərclərin vergitutma məqsədləri üçün dəqiq təsbit edilməsi mexanizminin müəyyənləşdirilməsi məsələləri də yer alır.

Vergi qanunvericiliyində aparılan dəyişikliklərin növbəti istiqaməti ölkəmizin beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması məqsədi daşıyır.

Ümumilikdə, cəmi dəyişikliklərin fəlsəfəsi mütərəqqi vergi inzibatçılığını formalaşdırmaq, biznes mühitinin təkmilləşdirilməsini dəstəkləmək və sosial rifaha töhfə verməkdir.

**ELBRUS CƏFƏRLİ**

# Azərbaycanın sülh şərtləri təsdiqlənir...

## ATƏT-in Minsk Qrupunun ləğvi üçün ikitərəfli müraciət edilməlidir

44 günlük Vətən müharibəsinin və 2023-cü ilin sentyabrında baş tutmuş antiterror tədbirlərinin nəticələri Ermənistan ilə Azərbaycan arasında uzun illərdir yaşanan "Qarabağ münaqişəsi"nin bitməsini şərtləndirdi. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpası həm də beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə, ədalətin bərpasına yol açdı. Yeni mərhələdə isə artıq sülh müqaviləsi aktuallıq daşımaqdadır. Nəzərə alsaq ki, son günlərini yaşadığımız il ərzində bir sıra səviyyələrdə - həm XİN başçıları, həm də dövlətlərarası müvafiq komissiyalar səviyyəsində görüş bu istiqamətdə əsaslı addım kimi qiymətləndirilir, sülhün yaxın zamanda reallaşacağı ilə bağlı ümidlər də artır. Xüsusilə, qalib tərəf olaraq Azərbaycanın ortaya qoyduğu sülhpərvər mövqe olduqca böyük humanizmin göstəricisidir. Bölgəyə sabitlik və inkişaf vəd edəcək sülhün reallaşması üçün Azərbaycan dövlətinin ortaya qoyduğu səylər olduqca əhəmiyyətlidir.

### Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa...

Sülh prosesinin ikitərəfli təmas səviyyəsinə keçməsi isə özündə bir sıra nüansları birləşdirir. Artıq tarixə çevrilmiş münaqişənin tənzimlənməsi prosesindəki beynəlxalq mexanizmlərə ehtiyac qalmayıb - yaranan yeni siyasi reallıqlar xüsusilə, ATƏT-in Minsk qrupunun fəaliyyətinin lüzumsuzluğuna dəlalət edir. Azərbaycan tərəfi bu məsələnin sülh şərtlərindən biri kimi önə çəkir - Ermənistan isə yenidən manipulyasiyalara əl atır, sülhün reallaşmasını gecikdirir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində sülh sənədinin 17 maddəsindən 15-nin razılaşdırıldığını bildirmişdi və razılaşdırılmamış iki maddədən biri də məhz ATƏT-in Minsk Qrupu ilə bağlı olduğunu qeyd etmişdi: "Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir".

### Münaqişə bitdi, Minsk qrupu aktuallığını itirdi...

Xatırladaq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin tənzimlənməsi üzrə birbaşa vasitəçi qismində tanınan Minsk qrupunun əsası 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı qoyulub. Həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinə dair Budapeşt sammitinin işinin konkret yekunu olaraq "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qərar qəbul olunub. Budapeşt Sammitinin nəticələrinə əsasən, 20 dekabr 1994-cü ildə Vyanada Ermənistan-Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olunub. 28 avqust 1995-ci ildə isə ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının müzakirəsində olan münaqişə üzrə Şəxsi Nümayəndəsi (ŞN) vəzifəsi təsis olunub. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk prosesinə Həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər.

44 günlük müharibə ilə başa çatan münaqişə həm də ATƏT-in Minsk qrupunun ləğvini aktuallaşdırdı. Artıq tərəflər vasitəçiz bir ortamda razılaşmanın bir addımlığındadır. Son reallıqlar bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyur. Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyub. Ermənistan-Azərbaycan münaqişəsinin mövcud olmadığı halda bu tənzimləyici mexanizmin qalması nə dərəcədə məqsədəuyğun ola bilər? Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür.

### Tərəflər etiraf edir...

Yeri gəlmişkən, Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya bu formatda görüşlərin keçirilmədiyini bildirib. Rusiya XİN rəsmisi Mariya Zaxarova deyib ki, Minsk qrupunun amerikalı və fransalı həmsədrləri rusiyalı həmsədrlə 2022-ci ilin fevralından təmasları kəsib". "2022-ci il oktyabrın 6-da Praqada keçirilən Azərbaycan, Ermənistan, Fransa və Avropa Birliyinin sammitinin nəticələrinə əsasən, Ermənistanın Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıması, 2023-cü ilin sentyabrında yerdə vəziyyətin kardinal şəkildə dəyişməsi ATƏT-in Minsk qrupunun mandatının aktuallığını itirməsi ilə nəticələnib. Minsk konfransının bütün strukturları - Minsk qrupu, yüksək səviyyəli planlaşdırma qrupu, ATƏT-in fəaliyyətdə olan sədrinin Qarabağ məsələsinin həlli üzrə şəxsi nümayəndəsi vəzifəsi ləğv edilməlidir. Rusiya tərəfi hesab edir ki, bununla bağlı müvafiq qərarların qəbul edilməsinin optimal yolu Bakı və İrəvanın müvafiq qurumların ləğvi ilə bağlı birgə müraciətidir".

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Regionda sülhün və təhlükəsizliyin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi isə ikitərəfli xarakter daşıyır. Son təmaslar da sübut edir ki, ikitərəfli, vasitəçisiz danışıqlar daha effektivdir. Beləliklə, "Minsk qrupu"nun strukturlarının saxlanılması heç bir aktuallıq kəsb edə bilməz.

*S.İSMAYILZADƏ*

# Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır

## İki ölkənin XİN başçıları nəyi müzakirə ediblər?

Azərbaycan və Türkiyəni tarixi, milli, dini və mədəni köklər bir-birinə bağlayır. Bugünkü münasibətlərimiz də böyük öndərlər Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimizdir" və Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fəlsəfəsinə istinad edir. Bu gün müstəqil dövlətlər olaraq münasibətlərimiz dostluq, qardaşlıq prinsiplərinə və strateji müttəfiqliyə əsaslanır. Tarixi köklərə, qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə bu gün ən yüksək zirvədədir. Hər iki ölkə beynəlxalq müstəvidə də bir-birini birmənalı olaraq dəstəkləyir.

### Nazirlər regional və beynəlxalq təhlükəsizlik məsələlərindən danışıblar

Türkiyə və Azərbaycanın münasibətləri möhkəm təməllərə malikdir. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim güclənməkdədir. Dekabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı zamanı müzakirə olunan məsələlər də bu reallığı təsdiqləyir. Telefon danışığı zamanı regional və beynəlxalq təhlükəsizlik, habelə ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Hakan Fidan ölkəmizin sərnişin təyyarəsinin Bakı-Qroznı reysini həyata keçirərkən Aktau şəhəri yaxınlığında faciəvi şəkildə qəzaya uğraması ilə bağlı bir daha Türkiyə dövləti və xalqının başsağlığını ifadə edib, qəza nəticəsində vəfat edənlərə rəhmət, yaralılara şəfa arzulayıb. Türkiyənin qardaş Azərbaycanla hər zaman həmrəy olduğu, habelə mümkün dəstəyin göstərilməsinə daim hazır olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov başsağlığı diləkləri və göstərilən davamlı dəstək və həmrəyliyə görə təşəkkür edib, təyyarə qəzasının səbəblərinin araşdırılmasının birbaşa ölkə rəhbərliyinin nəzarətində olduğunu və bu istiqamətdə dövlət komissiyasının yaradıldığını bildirərək, görülən işlər barədə məlumat verib.

### Türkiyə nümayəndə heyəti qəzanın araşdırılmasına dəstək verəcək

Qeyd edək ki, hadisə baş verən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Rəcəb Tayyib Ərdoğan baş vermiş təyyarə qəzası ilə əlaqədar Azərbaycan Prezidentinə, həlak olanların ailə üzvlərinə başsağlığı verib, yaralananlara şəfa diləyib. Eləcə də Türkiyə hökumət strukturlarının rəhbərləri də ölkəmizə başsağlığı veriblər.

Yeri gəlmişkən, Qazaxıstanın Aktau şəhərində AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə bağlı Azərbaycan Dövlət Mülki Aviasiya Agentliyinin müraciəti əsasında qəzanın səbəblərini araşdırmaq, texniki və əməliyyat təhlillərini aparmaq və qəza vəziyyətini təmin etmək üçün Türkiyədə 8 nəfərdən ibarət istintaq komissiyası yaradılıb. Bu barədə Türkiyənin nəqliyyat və infrastuktur naziri Abdulkadir Uraloğlu "X" səhifəsindəki paylaşımında bildirib. Qeyd edilib ki, nümayəndə heyəti Bakıda hadisənin bütün aspektlərini araşdırmaq üçün Azərbaycanın müvafiq qurumları ilə koordinasiyalı işləyəcək. "Türkiyə olaraq hər şəraitdə Azərbaycanın yanında olduğumuzu bildirir, həyatını itirənlərə Allah rəhmət eləsin, azərbaycanlı qardaşlarımıza şəfa diləyirik", - deyə nazir vurğulayıb. Bütün bunlar isə qardaşlıq nümunəsinin daha bir göstəricisidir.




Qeyd edək ki, Azərbaycan və XİN başçılarının telefon söhbətində, həmçinin Yaxın Şərqdə, o cümlədən Suriya ətrafında mövcud vəziyyəti müzakirə ediblər. Ölkəmizin Suriyada humanitar yardım niyyəti müzakirə olunub. Telefon danışığı zamanı, habelə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq perspektivləri və planları nəzərdən keçirilib. Telefon danışığı çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### Şuşa Bəyannaməsi münasibətlərimizin zirvəsini təşkil edir

Ümumiyyətlə, regionda baş verən proseslər daim Türkiyənin diqqətindədir və qardaş ölkə hər zaman birmənalı olaraq Azərbaycanı dəstəkləyir. Türkiyə-Azərbaycan münasibətləri uğurlu regional və beynəlxalq əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də dostluq və qardaşlıq örnəyi kimi xarakterizə edilir. Bununla yanaşı, Azərbaycan-Türkiyə münasibətləri davamlı inkişaf dinamikasına malikdir.

30 il əvvəl Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının 2020-ci ildə 44 günlük erməni qəsbkarlarından azad edilməsi zamanı da Türkiyə dövlətinin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi idi. Vətən müharibəsi dövründə Türkiyənin dövlət strukturları, bütün xalqı Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. İqtidar və müxalifət partiyalarını təmsil etməsindən asılı olmayaraq bütün siyasi qüvvələr də Azərbaycanın yanında oldular. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu amil bizim qələbə qazanmağımıza çox böyük təsir göstərdi. Bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının bir daha şahidi oldu. 2021-ci ilin iyun ayında imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üçün unikal bir nümunəyə çevrilib.

*Nardar BAYRAMLI*

# Bundestaq yeni seçkilərə doğru

Son vaxtlarda Avropa İttifaqında (Aİ) müşahidə edilən ziddiyyətli proseslərə səbəb olan əsas amillərdən biri də qurumda yer alan aparıcı dövlətlərin özündə yeni iqtisadi-siyasi böhran dalğasının başlaması ilə bağlıdır. Bu dalğa daha üzunmüddətli və təhlükəli ola bilər.

Məsələ ondan ibarətdir ki, aparıcı dövlətlərin Avropa evinin yükünü çiyinlərində daşımaq imkanları getdikcə daha sürətlə azalır və onlar yaranan çağırışlara effektiv cavab verməkdə ləngiyirlər. Fransanın ardınca indiyədək Aİ-nin drayveri sayılan Almaniyada da təbəddülatlar yaşanır, ölkədə iqtisadi-siyasi böhran dərinləşir.

### İqtisadi perspektivlər qaranlıqdır

Bu gün Avropanın ümid yeri kimi baxdığı Almaniyada iqtisadi inkişaf templəri zəifləyib. Vəziyyətin son dərəcə ciddi olduğu rəsmi səviyyədə etiraf olunur. Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dekabrın 27-də Bundestaqın buraxılması ilə bağlı çıxışında şirkətlərin çətin vəziyyətə düşdüyü və iş yerlərinin risk altında olduğu iqtisadi qeyri-müəyyənlikdən bəhs edib və bu baxımdan növbəti federal hökumətin qarşısında böyük vəzifələr durduğunu bildirib.

Eyni zamanda, aparılan rəy sorğularında, ekspert dəyərləndirmələrində iqtisadi gerilləmə prosesinin sürətləndiyinə diqqət çəkilir. "Almaniya iqtisadiyyatı dərin böhran içindədir və yeni il üçün perspektivlər qaranlıqdır". "Bild" qəzetinin məlumatına görə, bu, Kölndəki Alman İqtisadiyyat İnstitutunun (IW) sənaye müəssisələrinin təmsilçiləri arasında apardığı sorğunun nəticələrində əksini tapıb.

Ötən illə müqayisədə 49 biznes birliyindən 31-i mövcud vəziyyəti daha ağır olaraq dəyərləndirib. Vəziyyətin belə olmasının səbəbi kimi enerji, işçi qüvvəsi və xammal üçün yüksək xərclərlə yanaşı, Almaniyada bürokratiya və siyasi xaosun investisiya qoyuluşunu və rəqabətin qarşısını aldığı da göstərilib.




IW-nin direktoru Mixael Hüther vəziyyətin kritik olduğunu vurğulayıb. "Vəziyyət nadir hallarda bu qədər narahatlıq doğurub. Biz son 100 il ərzində bir sıra böhranlar yaşadıq, lakin onların heç birinin səbəbləri indiki qədər mürəkkəb deyildi", - deyən M.Hüther böhranın əsas səbəbinin hökumətin yanlış siyasəti olduğunu qeyd edib.

Sorğuda iştirak edən 49 sənaye müəssisəsindən 20-si 2025-ci ildə istehsal həcminin azalacağını proqnozlaşdırıb. Dörd assosiasiya - tökmə zavodları, polad və metal emalı, plastik emalı və poliqrafiya sənayesi dərin tənəzzülə hazırlaşdıqlarını açıqlayıb. Alman İqtisadiyyat İnstitutunun tədqiqatçıları tənəzzülün maşınqayırma, keramika, şüşə, ağac emalı, tekstil, qida və mədən sənayelərində də davam etdiyini bildiriblər. Nisbətən optimist fikirdə olanlar əsasən 16 sahəni, o cümlədən enerji və su sənayesi, həmçinin əczaçılıq, logistika və digər sektorları təmsil edirlər. Sənaye birliklərinin 25-i gələn il iş yerlərinin ixtisar ediləcəyini, yalnız yeddisi artım gözləyir. İş yerlərinin, ilk növbədə, avtomobil və dəmir-polad istehsalı, eləcə də maşınqayırma sənayesində azalacağı gözlənilir.



### Bundestaqa yeni seçkilərin vaxtı müəyyənləşib

Müşahidə edilən proseslər fonunda Fransada olduğu kimi, Almaniyada da sağçılar revanş götürüblər. Ölkədə aparılan sorğular göstərir ki, "Almaniya üçün alternativ" Partiyası son iki il ərzində tərəfdarlarının sayını 10 faizdən 22 faizə yüksəldib. Sözügedən partiya İkinci Dünya müharibəsindən sonra ilk dəfə Almaniyanın Türingiya vilayətinin parlamentində ən böyük qüvvəyə çevrilib. Almaniyanın şərqindəki Saksoniya federal əyalətində də Landtaqa seçkilərdə ifrat sağçı "Almaniya üçün Alternativ" (AfD) 30,6 faiz, Sara Vaqenknext İttifaqı (BSW) - 11,8 faiz, Sol Partiya - 4,5 faiz səs toplayıb.

Paralel şəkildə, bundestaqda Almaniya kansleri Olaf Şoltsa etimad, bütövlükdə parlamentin buraxılması məsələsi gündəmə gəlib. Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dekabrın 27-də Bundestaqın buraxılması barədə qərarı elan edib. O, müvafiq qərarı "Bellevue" sarayında təşkil olunan brifinqdə açıqlayıb. Frank-Valter Ştaynmayer yeni - növbədənkənar seçkilərin 2025-ci il fevralın 23-də keçiriləcəyini bildirib.

Bununla da dövlət başçısı dekabrın 16-da Bundestaqda keçirilmiş etimad səsverməsinin uğursuzluqla nəticələnməsindən sonra kansler Olaf Şoltsun parlamentin buraxılması ilə bağlı müraciətinə uyğun olaraq bu qərarı qəbul edib.

Xatırladaq ki, Sosial Demokrat Partiyası(SPD), Azad Demokrat Partiyası (FDP) və Yaşıllar Partiyasından ibarət koalision hökumət FDP-nin sədri və maliyyə naziri Xristian Lindnerin iqtisadi durğunluqla mübarizə, dövlət xərcləri və büdcə məsələlərinə dair fikir ayrılığı ilə əlaqədar Kansler Olaf Şolts tərəfindən vəzifəsindən azad olunmasından sonra onun rəhbərlik etdiyi partiya koalisiyadan ayrıldığını elan etmişdi. Bundan sonra lazımi çoxluğu təmin edə bilməyən SPD-Yaşıllar koalisiyasına etimad göstərilməsinə dair məsələ dekabrın 16-da Bundestaqda səsverməyə çıxarılmışdı. Şolts hökumətinə etimad göstərilməsi üçün federal parlamentdəki 733 deputatdan ən azı 367-si qərarın lehinə səs verməli idi. Lakin deputatlardan 207-si hökumətin lehinə, 394-ü əleyhinə səs vermiş, 116 deputat isə bitərəf qalmışdı. Bundan sonra kansler Olaf Şolts parlamentin buraxılması barədə qərar qəbul etmək üçün federal Prezident Frank-Valter Ştaynmayerə müraciət edib.

Almaniya Konstitusiyasına görə, Bundestaqda hökumətə etimad göstərilmədikdə federal Prezident parlamentin buraxılması barədə 21 gün ərzində qərar qəbul etməlidir. Bundan sonra ən gec 60 gün ərzində növbədənkənar seçkilər keçirilməlidir. Beləliklə, normal təqvimlə 2025-ci il sentyabrın 28-də keçirilməli olan parlament seçkiləri hökumət böhranından sonra SPD və Birlik partiyaları arasında daha əvvəl razılaşdırılmış tarixdə - fevralın 23-də baş tutacaq.

*Mübariz ABDULLAYEV*

# Qərbi Afrika Birliyinin sıraları seyrəlir

## Mali, Burkina-Faso və Niger Sahel Dövlətləri Alyansı çərçivəsində birləşdiklərini bəyan ediblər

Burkina-Faso, Mali və Niger gələn il yanvarın 29-dan etibarən Qərbi Afrika Ölkələri İqtisadi Birliyini (ECOWAS) tərk edəcək. Bu barədə qurumun Nigeriyanın paytaxtı Abucada keçirilən iclasında komissiya rəhbəri Omar Alyö Türe məlumat verib. Bildirilib ki, hər 3 ölkə təşkilatdan çıxdığını təsdiqləyib. Müvafiq prosedurları yerinə yetirmək üçün yanvarın 30-dan etibarən 6 aylıq keçid müddəti müəyyən edilib.

Qeyd edək ki, bu ilin yanvarında Burkina-Faso, Mali və Niger qurumdan çıxmaqla bağlı diplomatik kanallarla müraciət etmişdi. Hər 3 ölkə bu qərarını təşkilatın "Afrika xalqlarının tələblərinə cavab verməməsi" ilə əsaslandırıb. Burkina-Faso, Mali və Niger ECOWAS-ı keçmiş müstəmləkəçi Fransanın istifadə etdiyi alət də hesab edirlər. Adıçəkilən 3 dövlət Sahel Dövlətləri Alyansı çərçivəsində birləşdiklərini bəyan ediblər. Belə ki, Mali, Burkina-Faso və Niger Sahel Dövlətləri Alyansı adlı hərbi pakt imzaladıqlarını bəyan ediblər. Həmçinin, onlar müdafiə sahəsində əvvəllər Parislə bağladıqları əməkdaşlıq haqqında müqavilələrə xitam verərək Fransa hərbi kontingentini öz ərazilərindən çıxarıblar.

Qeyd edək ki, Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi 28 may 1975-ci ildə 16 Qərbi Afrika ölkəsinin Laqos müqaviləsi imzaladığı zaman qurulub. Birliyin yaradılmasında məqsəd bölgə ölkələrinin iqtisadi inteqrasiyasını təşviq etməkdir. Blokun öz kollektiv hərbi qüvvələri olan ECOMOG da mövcuddur. Mavritaniya 2000-ci ildə bu təşkilatdan ayrılıb. Hazırda isə



quruma Benin, Burkina-Faso, Kabo-Verde, Kot-d'İvuar, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Liberiya, Mali, Niger, Nigeriya, Seneqal, Syerra-Leone və Toqo daxildir. Sözügedən üç ölkənin gələn ilin yanvarında rəsmən tərk etməsindən sonra ECOWAS üzvlərinin sayı 12-ə enəcək.

2004-cü ildə təşkilata üzv ölkələrin müdafiə nazirləri 2010-cu ilədək daimi hazırlıq qüvvəsini (1,5 min nəfər) və əsas sülhməramlı briqadanı (5 min nəfər) əhatə edəcək döyüşə hazır ECOWAS sülhməramlı kontingentinin yaradılması təkliflərini təsdiqləyiblər. Əslində, onlar azad ticarət zonası yaratmaq mərhələsindədirlər.

Blokun ali idarəetmə orqanı isə Dövlət və Hökumət Başçılarının Konfransıdır. ECOWAS-da Parlament, Məhkəmə, Ekobank, İqtisadi və Sosial Şura, komissiyalar da fəaliyyət göstərir.

ECOWAS-ın məqsədləri sırasına "qaynar nöqtələrdə" barışıq və təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla və kiçik silahların yayılması, tərksilah, qaçaqmalçılıqla mübarizə də daxildir. Amma əsas məram isə yoxsulluğa qarşı mübarizə, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, iqtisadi sabitliyə nail olmaq, üzv dövlətlər arasında normal münasibətləri inkişaf etdirmək, Afrika qitəsinin irəliləməsinə və inkişafına töhfə verməkdir.

Qeyri-iqtisadi fəaliyyətə gəlincə, 2012-ci ilin sentyabr ayında təşkilat BMT Təhlükəsizlik Şurası tərəfindən sanksiyaya məruz qaldığı təqdirdə, Malinin ərazi bütövlüyünü bərpa etmək üçün 3300 əsgər göndərməyə hazır olduğunu bildirmişdi. Xalq, ölkənin şimalını üç qrupun - "Ənsar əd-Din", "Birlik Hərəkatı" və "Əl-Qaidə" hakimiyyətindən qurtarmaq üçün Malidə hərbi əməliyyat keçirmişdi. Bundan başqa da, blokun hərbi kontingenti müxtəlif terror qruplarına və qanunsuz silahlı dəstələrə qarşı hərbi tədbirlər reallaşdırıb.

Məlumdur ki, fransiz imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. Yerli xalqlar iqtisadi, siyasi və mədəni təzyiqə məruz qalıblar. Artıq bir sıra xalqlar Fransanın müstəmləkəçiliyinə qarşı mübarizəyə qalxıblar. Afrikada da bu proses genişlənməkdədir. Fransanın təsir dairəsində olan ECOWAS-ın sıralarının seyrəlməsi də bunun göstəricisidir.

*N.BAYRAMLI*

# Dünyada ən böyük hərbi büdcə

Hazırda dünyada artan geosiyasi və geoiqtisadi gərginliklər ilk növbədə qütbləşmə meyllərin güclənməsindən qaynaqlanır. Qlobal Şərqlə qlobal Qərb arasında qarşıdurmaların yüksək dinamika ilə yeni-yeni coğrafiyaları əhatə etməsi ciddi narahatlıq doğurur. Bu proseslər fonunda ayrı-ayrı güc mərkəzlərinin hərbi arsenallarını artırmaları xüsusilə diqqət çəkir.

## ABŞ-nin 895 milyard dollarlıq hərbi büdcəsi

Hazırda dünyanın ən böyük iqtisadiyyatına malik Amerika Birləşmiş Ştatları (ABŞ) öz potensialına uyğun olaraq qobal miqyasda cərəyan edən proseslərə güclü şəkildə təsir etmək, onları istiqamətləndirmək imkanlarını da özündə saxlayır. Bunu biz son olaraq Yaxın Şərqdə və Şərqi Avropada alovlanan müharibələr fonunda açıq-aydın izləyirik. Son üç ildə Vaşinqton Rusiya-Ukrayna müharibəsində Kiyevə dəstək verən əsas ölkə qismində çıxış edib. ABŞ, həmçinin Rusiyaya qarşı Qərb koalisiyasının formalaşmasında aparıcı rol alıb.

ABŞ perspektivdə də özünün dominant mövqeyini qorumaq niyyətindədir. Ağ Evin 2025-ci il üçün hərbi büdcəsini rekord səviyyədə artırması da bu niyyətdən xəbər verir. Artıq gələn il yanvarın 20-də postunu tərk edəcək prezident Co Bayden 2025-ci maliyyə ili üçün müdafiə büdcəsini təsdiq edən qanunu imzalayıb. Bu barədə Ağ Evin mətbuat xidmətindən bildirilib.

Məlumata görə, bir neçə gün bundan əvvəl Senat 895 milyard dollarlıq müdafiə büdcəsini təsdiq edib. Layihənin lehinə 85, əleyhinə 14 senator səs verib. Bundan əvvəl isə büdcə Nümayəndələr Palatasında 281 lehinə, 140 əleyhinə səslə qəbul edilib

"The Hill" yazır ki, büdcədə ABŞ ordusunun Hind-Sakit okean regionunda mövcudluğunun gücləndirilməsi, yeni yerüstü texnika və təyyarələrin istehsalı, gəmilərin inşası, eləcə də bütün ABŞ hərbçilərinin maaşlarının artırılması üçün vəsaitin ayrılması nəzərdə tutulur. Pentaqonun rəhbəri Lloyd Ostin "Ronald Reyqan Forumu"nda bildirib ki, bu, ABŞ ordusuna dünyanın ən güclü döyüş qüvvəsi olaraq qalmasına kömək etməlidir.

ABŞ-nin gələn il üçün müdafiə büdcəsinin strukturunda F-35 qırıcılarının alınması ilə bağlı bənd xüsusi diqqət çəkir. Ümumi büdcə artırılsa da, qırıcıların alınması üçün xərclərin azaldılması



nəzərdə tutulub. Belə ki, ABŞ növbəti maliyyə ilində F-35 qırıcılarının alışını 18 faiz azaltmaq niyyətindədir. "Reuters"in məlumatına görə, Pentaqon "Lockheed Martin"dən 83 deyil, 70-dən az qırıcı sifariş etmək niyyətindədir. Bu da həmin modelin xərclərini 1,6 milyard dollar azaldacaq. Bir təyyarənin qiyməti isə 80-120 milyon dollar arasında dəyişir.

Müqayisə üçün bildirək ki, Şimali Atlantika Alyansında (NATO) yer alan digər dövlətlərin hərbi xərcləri ABŞ ilə müqayisədə xeyli azdır. Məsələn, Almaniya 97 milyard, Böyük Britaniya 82 milyard, Fransa 63 milyard dollar həcmində hərbi büdcəyə malikdirlər. Eyni zamanda, onu da vurğulayaq ki, NATO-nun maliyyələşməsinin əsas yükü də ABŞ-nin üzərinə düşür. Bununla belə, Amerika Birləşmiş Ştatlarının 45-ci prezidenti olmuş və cari il noyabrın 5-də yenidən dövlət başçısı seçilən Respublikaçılar Partiyasının namizədi Donald Tramp NATO-da yeni maliyyələşmə mexanizminin tətbiqi təşəbbüsü ilə çıxış edib. O, dəfələrlə NATO-ya üzv ölkələri ümumi daxili məhsullarının 2 faizini müdafiə xərcləmək vədlərini yerinə yetirməyə çağırıb. Prezidentliyi dönəmində ABŞ-ni NATO-dan çıxaracağı mesajı da ona məxsusdur. Trampın NATO açıqlamaları alyans üzvərini ciddi təşvişə salıb. ABŞ-nin NATO-dan çıxması Avropanın müdafiəsiz qalması anlamında qəbul olunur. Təsadüfi deyildir ki, Donald Tramp yenidən prezident seçildikdən sonra Avropa Siyasi Birliyi təcili qaydada toplandı və orada "qoca qitə"nin təhlükəsizliyinin təmin olunması məsələsi gündəliyin mərkəzində dayandı. Avropada anlayırlar ki, NATO həlelik onların əsas müdafiə çətiridir və ABŞ-siz bu çətirin altı boş qalar. Daxili mənbələr hesabına isə Avropanın ümumi təhlükəsizliyini təmin etmək mümkünsüz görünür...

## Çinin mövqeyi

Bir çox dairələr Vaşinqtonun hərbi büdcəsini rekord səviyyədə artırmasını Pekinə əzələ nümayişi kimi dəyərləndirirlər. Öz növbəsində Çin də ABŞ-nin hərbi büdcəsini artırmasını böyük narahatlıqla izləyir. "ABŞ-nın hərbi xərcləri nəzərdə tutan müdafiə büdcəsinin rekord həddə çatması qlobal sabitlik üçün təhdiddir". Çinin Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi Çjan Syaoqan bunu jurnalistlər üçün təşkil olunan brifinqdə deyib. "ABŞ Çinin hərbi təhdidini bəhanə edərək bu layihə ilə hərbi xərclərin artırılmasına və hegemonluğun saxlanmasına haqq qazandırır. Vaşinqton bu yolla Çinin daxili işlərinə kobud şəkildə müdaxilə edir və bütün dünyada sabitliyi pozur", - deyə Çjan Syaoqan bildirib.

Çinin heç kimə meydan oxumaq niyyətində olmadığını deyən nazirliyin nümayəndəsi ABŞ-nin ən böyük düşməninin elə onun özü olduğunu vurğulayıb: "Birləşmiş Ştatlar hərbi xərclərə görə dünya lideridir və hər il hərbi-sənaye kompleksinə sərmayələri artırır. Bu, onun müharibədən asılılığının və hegemon ekspansiyasının əsl mahiyyətini nümayiş etdirir".

Nazirliyin nümayəndəsi Çinin hər zaman dinc inkişaf yoluna sadiq qaldığını, müdafiə siyasəti yürütdüyünü və heç bir ölkə ilə silahlanma yarışına girmədiyini xatırladıb.

*Mübariz FEYİZLİ*

# Mənəvi dəyərlərimiz...

## Adət-ənənələrimizin təbliği üçün hansı işlər görülməlidir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

Adət və ənənələr, mənəvi dəyərlər sistemi hər bir xalqın mədəni siması deməkdir. Xalqımız öz adət-ənənələri, yüksək mənəvi dəyərləri ilə dünya xalqları içərisində hər zaman sayılıb-seçilib. Xalqımızın bu dəyərlərinə hər zaman hörmətlə yanaşılıb. Çünki millətimiz zəngin əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına verdiyi əvəzsiz töhfələrlə daim yadda qalıb. Adət-ənənələrimiz xalqımızın keçmişi ilə bu günü, eləcə də gələcəyi arasında sarsılmaz mənəvi bağlılığı əks etdirir.

Bu gün milli adət-ənənələrimiz yetişməkdə olan gənc nəslin yaddaşında dərin izlər buraxaraq güclü təsirə malikdir. Məhz adət-ənənələr gənclərin Vətən, millət, xalq sevgisi ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Sevindirici haldır ki, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin təbliği istiqamətində ölkədə vətəndaş cəmiyyəti, kütləvi informasiya vasitələri, hətta sıravi vətəndaşlar belə əllərindən gələni edirlər. Çünki dövlətçilik tariximizin, adət-ənənələrimizin, onun reallıqlarının, mənsub olduğu dəyərlərin dünyada tanıdılmasının vacibliyi başa düşülür. Elə bu səbəbdən də müstəqilliyimizi əldə etdiyimiz 30 ildən bir qədər artıq dövr ərzində Azərbaycan tarixi, adət-ənənələri və milli-mənəvi dəyərlərinin dünyada tanıdılmasına nail olub.

**Adət-ənənələrimizin təbliği daim aktualdır**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən təhsil üzrə ekspert Nadir İsrafilov bildirib ki, qeyd olunan məqamlar orta və ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında da nəzərə alınmalıdır. Ekspert qeyd edib ki, dövlətçilik tariximiz, milli adət-ənənələrimiz, elm və mədəniyyətimiz gənc nəslə tədris edilməli, öyrədilməli, onlar məlumatlandırılmalı, bilikləndirilməlidirlər: "Bu bilik, məlumatlılıq da öz növbəsində bizə məxsus olan dəyərlərin, qədim tarixə malik olan dövlətçilik ənənələrimizin, elm və mədəniyyətimizin, adət-ənənələrimizin təbliğinə əsaslı zəmin yaradır. Eyni zamanda, vətəndaşlar özləri belə övladları ilə dövlətçilik tariximiz, adət-ənənələrimiz, elm və mədəniyyətimiz barədə söhbətlər aparmalı, bu ali dəyərləri təbliğ etməlidirlər. Belə bir cəmiyyət də, bu cəmiyyətin təmsil olunduğu dövlət də sarsılmaz olur. Bu baxımdan da dövlətçilik tariximizin, adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliğinin hər zaman aktual olduğu təkzib edilə bilməz".

**Xalqımızın mənəvi dəyərlərimizə verdiyi önəm**

Ekspertin sözlərinə görə, Azərbaycan cəmi 44 gün ərzində öz gücü, qüdrəti hesabına işğal altında 30 ilə yaxın müddətdə saxlanılan torpaqları azad etdi, mükəmməl qələbəyə, Zəfərə imza atdı: "Çoxlu sayda könüllü bu yolda vətəndaşlıq borcunu hiss etdiyini təsdiq etdi. İstər şəhidlərimiz, istərsə də qazilərimiz təsdiq etdilər ki, bizə məxsus olan ali dəyərlərə cəmiyyətimiz nə qədər böyük önəm verir. Azərbaycan cəmiyyəti öz ali dəyərlərinə, torpaqlarına, dövlətçilik ənənələrinə, ümumiyyətlə, maddi və mənəvi irsinə hörmətlə yanaşdığı üçün 30 il müddətində işğal faktı ilə barışmadı. Şuşa kimi, ölkəmizin mədəniyyət paytaxtının, milli adət-ənənələrimizi özündə əks etdirən mədəniyyət ocağının düşmən tapdağından xilas edilməsi xalqımızın milli və mənəvi dəyərlərinə verdiyi önəmin təcəssümü idi. Bütün bunlar isə Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği sayəsində oldu. Dövlətimiz bu istiqamətdə doğru, düzgün iş aparıb və dövlətçilik tariximizin, milli adət-ənənələrimizin təbliğinə xüsusi diqqət ayırıb, qayğı ilə yanaşıb".

**Davamlı təbliğat vacibdir**

N.İsrafilov qeyd edib ki, tarix boyu ermənilər bizə məxsus olanlara sahib çıxmağa çalışıblar: "İstər torpaqlarımızı, istər milli adət-ənənələrimizi, istərsə də elm və mədəniyyətimizi öz adlarına çıxmaq, mənimsəmək üçün hər zaman dəridən-qabıqdan çıxıblar. Bizə məxsus olan ərazilərdə ermənilər tərəfindən tarixi abidələrin saxtalaşdırılması, mədəniyyət abidələrimizin məhv edilməsi, yaşı çox olan qəbirlərin belə dağıdılması məhz həmin məqsəd daşıyıb. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği hər zaman aktual məsələ hesab olunur. Çünki tariximizi, milli adət-ənənələrimizi, elm və mədəniyyətimizi dərindən öyrənməli və təbliğ etməliyik ki, məkrli niyyət güdən düşmənlərin öz məqsədlərinə çatmalarına imkan verməyək. Bunun üçün də dövlətçilik tariximizə, milli adət-ənənələrimizə, elm və mədəniyyətimizə hər zaman sahib çıxmalı, onları davamlı olaraq təbliğ etməliyik".

*Yeganə BAYRAMOVA*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




## Şənbə üçün nəsr

# "Bataqlıq" hekayəsi



Bizim küçənin səması kiçik, insanları aciz və xəyaldan kasaddı sanki. Günəş gec-gec doğur bu tərəflərə, o da digər tərəfdəkilər bulud istəyəndə. Burada arzu yetişməz, xəyal qurulmaz, gələcək gəlməz. Xülasə, küçə deyil, dünyanın küncüdür, adamları da küncə qoyulmuş küskün uşaqlar.

Tısbağa kimi qınına çəkilmiş küçənin ahəngini tez-tez Xəlillə Sənəmin davası pozurdu. Onların səs-küyünə qonşular da öyrəşmişdilər. Bir-iki dəfə səs-küydən bezən qonşular qapılarını döyüb giley-güzar eləsələr də, faydası olmamışdı. İki-gündən bir zavallı Sənəmin harayı bütün kü-



çəni başına götürürdü. Zavallı qadın "Kömək eləyin" deyib haray çəkirdi. Mənim cəmi 8 yaşım vardı, ona kömək edə bilməzdim. Üstəlik, anam deyirdi ki, başqasının ailə işinə qarışmaq olmaz, bu gün dalaşıb, sabah barışacaqlar. Beləcə, onların həftədə üç-dörd dəfə eşidilən haray-qışqırığı küçəmizin sakinləri üçün adi hala çevrilmişdi. Amma heç kim Sənəmin çəkdiyi zülmün gerçək səbəbini bilmirdi. O, evlərdə mövsümə uyğun yun, xalça yumaqla çörək pulu qazanırdı. Kimisi Sənəmə evini, kimisi həyət-bacasını təmizlədir, əvəzində verdiyi qəpik-quruşla yaşamağına kömək etmiş olurdu. Qonşular deyirdilər ki, qazandığını da Xəlil əlindən alıb pis yerlərə xərcləyir. Qonşular Xəlili Sənəmlə davranışına görə sevmirdilər. Atam, deyəsən, bir-iki dəfə onu tənbeh də eləmişdi. Xeyri olmadığını görüb bir dəfə evdə dedi ki, Xəlil ağıllanası deyil.

Canlı yayımda halı pisləşən müğənni verilişi tərk etdi

Azərbaycanlı yazıçı Çində "İlin şairi" mükafatına layiq görüldü

"Sənin üçün çox darıxıram..." - Cəmilə Əbülfət Kərim

"Getdiyi pis yerlər, etdiyi pis əməllər onu dəyişdirmişdi"-qızı, rəfiqəm Gülər belə deyirdi. Həmişə atası barədə danışıb ağlayanda, onu sakitləşdirməyə çalışırdım. Deyirdim ki, bizim barəmizdə hər şeyi biz yox, atalarımız düşünür, fikir çəkirlər, gərək onlar əsəbiləşəndə küsməyək. Gülər deyirdi ki, hər ata belə deyil. Hətta bir dəfə dedi ki, o, atasına nifrət edir.

Bir gün atamdan soruşmuşdum ki, Gülər sənin qızın olsaydı, onu da mənim kimi çox sevərdin? Atam demişdi ki, bütün uşaqları çox sevir. Amma Xəlil heç bircə qızı Güləri də sevmirdi. Bir dəfə darvazaları aralı idi, atasının Güləri döydüyünü görmüşdüm. Yaxşı ki, mənim də atam Xəlil deyildi. Yoxsa hər gecə saçlarımı kim sığallayar, hər səhər saçlarımı kim darayardı? Düz səkkiz yaşıma qədər hər gecə atam məni sığallayaraq yatızdırırdı. Hörüklərimi açar, yuxuya getsə belə, saçlarımı yorulmadan sığallayardı.

Sonra müharibə başladı. Mən hər gecə gözümü yumub, atamın əlini saçımda hiss edərək yuxuya getməyə vərdiş elədim. Özümdən çox saçlarım darıxırdı atam üçün. Bəzən anam hiss etməsin deyə, yorğanın altında xısın-xısın ağlayırdım. Görəndə ki, anam da ağlayır, başa düşürdüm ki, indi rahat ağlamaq olar. Böyüdüm o günlərdə. Anladım ki, yaxşı atalar təkcə öz uşaqlarını yox, bütün uşaqları qorumaq üçün mövcuddur, onlar təkcə öz evlərini yox, Vətəni də qorumaq üçün yaşayırlar. Lazım gəlsə, bu amal uğrunda canlarından belə keçə bilərlər. Bunu dərk etsəm də, atamın ölməyini düşünmək nəfəsimi kəsirdi, tez qara fikirləri qovurdum beynimdən. Atam çox güclüdür, bilirdim ki, onu heç kim öldürə bilməz. Həm də söz vermişdi, mən böyük qız olana qədər hər gecə hörüklərimi özü açacaq, sığallayıb, darayacaq. Axı mən hələ böyüməmişəm...

Müharibənin zülməti küçəmizə çökəndən bəri Xəlillə Sənəmin həyatına da sükut hopmuşdu. Sənəmin Xəlili tanıdığı gündən başlayan müharibəsi, bəlkə də, bu günlərdə sovuşmuşdu. Ona görə küçənin hüznlü mənzərəsindən fərqli olaraq, Sənəm asudə günlərinin dadını çıxarırdı.

Bəlkə də, küçənin kişiləri cəbhədə düşmənlə vuruşduğu halda, Xəlil evdə arvadını döyməyə utanırdı.

Sona xalanın oğlu bayrağa bükülmüş cənazədə qayıdanda Xəlili ilk dəfə ağlayan gördüm. Pis insanlar da ağlaya bilirmişlər.

Heç bilmirəm, niyə Xəlili müharibəyə aparmamışdılar. Bəlkə də, bunu Sənəmdən çox istəyən olmazdı. Anamdan soruşanda demişdi ki, ailəsini, övladını sevənlər Vətəni sevə bilər, Xəlil kimilər yox.

Mən müharibənin nə zaman bitəcəyini bilmədən gün sayırdım. O günlərdə Gülər bizə tez-tez gəlirdi. Gəlinciklərimizi kənara atıb, bir-birimizə daha da doğmalaşmışdıq. Mənim çarəsiz, ağlağan bildiyim Gülər güclü və nikbin dostuma çevrilmişdi. Onun dilindən eşitdiyim "bəzi atalar evinin qəhrəmanı ola bilmədiyi halda, bəzi atalar Vətən boyda evin qəhrəmanı olur" sözləri bütün üzüntümə, həsrətimə təsəlli olmuşdu. Gülərin gözəl, dərin fikirlərində Sənəmin sısqa görkəmindən, Xəlilin qorxunc simasından əsər-əlamət yox idi. O, dava-dalaş bitməyən evlərində ürəyini belə gözəl saxlaya bilmişdi. Kaş o mənim bacım olaydı. Çalışırdım ki, o bizdə çox zaman keçirsin. Sənəmin "Gülər, evə gəl" deyə çığırtı qoparması ilə buludların üzərində pərvazlanan fikirlərimizin rəngsizləşib dar küçəyə, alaqaranlıq evimizə dürtülməyi bir olurdu. Biz hər görüşdə hansısa söhbəti ixtisar edirdik. Daha gözəl mövzuları bu məkana, bu zamana qıymırdıq, sonraya - daha gözəl yerlərə, daha gözəl anlara saxlayırdıq.

Küçəmizin ayağında mənşəyi bilinməyən bataqlıq vardı. Üfunətdən, qurbağaların səsindən yanından keçmək olmurdu. Anam bataqlığa yaxın getməyi o qədər qadağan etmişdi ki, elə bilirdim, bu qadağa bütün uşaqlara aiddir, bütün ananların qoyduğu qadağalar arasında mütləq bizim küçənin ayağındakı bataqlığa getməmək də var. Anamın dediyinə görə, illər əvvəl o bataqlıqda beş yaşlı uşaq batmışdı. Ondan sonra bu küçənin sakinləri o yeri əzrayılın evi zənn edirdilər. Evcik-evcik oynayanda bəzək üçün Gülərlə xəlvət bataqlığa qaçıb ehtiyatla, bir-birimizdən yapışaraq bir-iki qamış qoparmışdıq. Anam qamışları görəndə məni bərk danlamış, bir neçə gün Gülərlə oynamağa icazə verməmişdi. Sonra Güləri görmədiyim hər günün günahını bataqlığın boynuna yıxıb, qamışlara da, üfunət iyi verən bataqlığa da nifrət etmişdim. O vaxtdan sonra həndəvərinə də getməmişdim.

Amma Xəlilin qolu kəsilən gün hamı Güləri axtaranda, mən düşünmədən qamışlığa yollanmışdım. O, sanki bataqlığa üzüntüsünü, göz yaşını, kimsə görməsin deyə, boğmağa gəlmişdi. Mən yaxınlaşanda dirsəyi ilə gözlərini silib, ayağa qalxdı. "Gəlmə, anan danlayar, mən də qayıdıram" deyərək, soyuq şəkildə etiraz etmişdi.

Yolboyu heç nə danışmadı. Hiss etdirməsəm də, içimdə sevinməmiş deyildim - Xəlil daha onları döyə bilməyəcəkdi. Çünki sağ qolu dirsəkdən aşağı kəsilmişdi. İlk vaxtlar elə bilirdim ki, Sənəmlə Güləri döydüyü üçün polis kəsib onun qolunu. Sonra anam təəssüflə dedi ki, polislər ailələrini döyən kişilərin qolunu kəsmək səlahiyyətində deyillər, uzaqbaşı onları cəzalandıra, cərimə edə bilərlər. Xəlilin qolu xəstəlik səbəbindən kəsilib. Pis işlər gördüyü üçün qolu çürüyüb, həkimlər də başqa əlac görməyiblər.

Amma qolsuzluq Xəlilə döymək vərdişini unutdurmadı. O istəyəndə təpiklə döyür, ən yaxşı halda, hirsini evdəki sınıq-salxaq əşyaları təpikləməklə soyudurdu.

Atam evə zəng edəndə ilk sualım nə zaman qayıdacağı barədə



olurdu. O isə hər dəfə eyni cavabı verirdi: "Az qalıb, qızım". Nə qədər qaldığını isə nə o, nə də biz bilirdik. Sonra anam telefonu məndən alıb, titrək səslə "Özün necəsən?" deyərək, başqa otağa keçirdi. Məndən gizli nə danışırdılarsa, sonunda həmişə anam ağlayaraq sağollaşırdı. Hər telefon danışığımızda macal tapıb atama Xəlildən, Gülərdən danışırdım. Atamı razı salmışdım ki, qayıdanda Gülər də bizim evdə yaşasın, atam həm də onun atası olsun.

Xəlil son günlər çətinliklə yeriyirdi. Gülər deyirdi ki, onun ayaqları qaralıb, həm də şişib. Həkim dərdinin çarəsi olmadığını deyibmiş. Xəlil sağlamlığını itirdikcə, sanki Sənəmin həyat eşqi artırdı. Bu, açıq-aşkar hiss olunurdu.

Mən hər gecə atam qədər Xəlilin, özüm qədər də Gülərin taleyini düşünürdüm. Bu dünyada övladlarını sevməyən, onlara əziyyət verən atalar evdən çıxmamağa məhkumkən, niyə sevimli atalar uzaqlardadır?

Gülər atasının acı sözlərinə göz yaşı axıdarkən, mən atamın həsrətilə ağlayırdım hər gecə. Mən küskün saçlarıma atamın sığalını arzu edərkən, o atasının qolu kəsildiyi üçün çoxdandır yolunmayan saçları üçün ürəyində sevinirdi. Saçların da bəxtlisi, bəxtsizi varmış...

O gecə bunları düşünüb yatanda, sabah atamın gələcəyini, sadəcə, ürəkdən dua etmişdim.

Maşının qabağına - küçənin başına qədər ayaqyalın qaçmışdım. Noyabr ayı idi, anam görsə, məni danlayardı: mən ayaqlarımı yağış suyunun əməl gətirdiyi kiçik gölməçələrə çırpa-çırpa - atasız günlərdə yaşadığım üzüntülərimi üst-başımdan yerə töküb, onun qucağına qaçırdım. Maşın mənə çatanda dayandı, qabaq qapı açıldı, atam palçıqlı çəkməsini yerəaylardır nəfəsimi kəsən atasızlığımın başına qoydu. Xəyalını qurduğum səhnəni yaşayırdım: onun qucağına atlanıb, bərk-bərk öpdüm. Hiss etdim ki, atam məni qucağında saxlaya bilmir. Yorğun olduğu ağlıma gəlməmişdi. Məni yeri qoyub, anamla görüşdü. Qonşularımız ətrafımıza toplaşıb, "Xoş gəlmisən, həmişə evində" deyərək alğış edirdilər. Yeriməyə çətinlik çəkən Xəlil də darvazaya söykənib təbəssümlə atama baxırdı. Sənəmin fəryadına, qarğışına alışmış küçəmiz çoxdandır fit, alqış səslərini yadırğamışdı. Atam ağır addımlarla evimizə doğru addımlayırdı. Bir qolunu anamın boynuna keçirmiş, sanki yorğunluğunu məhəbbət görkəmi altında gizləməyə çalışırdı. Sevincimdən hoppanaraq yeriyirdim. Saçlarım havada uçuşaraq qovuşduğu nəvaziş şərəfinə şadlıq edirdi. Gedə-gedə bir-birinə sarılmış atamla anamın ətrafında dövrə vururdum. Sonsuz səadətimin ömrü bir neçə dəqiqə çəkdi: atamın əlindən tutmaq istəyəndə, əlim boşa çıxdı. Hərbi geyimin sağ qolu bomboş idi... Atam saçlarımın sığalını müharibədə itirmişdi.

Atam Xəlil kimi olmuşdu - qolsuz. Hər ikisi sağ qolunu itirmişdi. Gülər böyük işgəncədən azad olduğu



halda, mən ömürlük saçlarımın sığalını, bütöv qucağı itirmişdim.

Atamı belə görməmək üçün onunla danışanda gözlərimi yayındırır, divara, tavana baxaraq danışırdım. Nəhayət, o gecə özümü toparlayıb, atamdan soruşdum:

- Ata, qolun hardadır?

- Bilirsənmi, bəzi ataların qolları yanlarındakı qızlarına sığal çəkməyəcək qısa olduğu halda, bəzi ataların qolları Vətən boydadır. Qolum illərdir həsrətdən üşüyən balaların ruhuna sığal çəkmək üçün uzaqlarda qaldı. Məndən incimə, qızım, qolumu ruhu yetim qalmış balalara, ağaclara, otlara, daşlara sığal çəkmək üçün Vətənə bağışladım.

Yenə səhər yuxudan hamılıqla Sənəmin fəryadına oyandıq. Xəlil "rədd ol, pul tap" deyə çığırır, Sənəm isə "Allah səni yox eləsin, vicdansız, vurma!" deyərək imdad diləyirdi. Dava günortadan sonra səngidi. Sənəm Gülərin evdə olmadığını anlayıb, dəli kimi küçədə qaçanda artıq gün batmışdı. Yavaş-yavaş axtarışa bütün qonşular qoşuldu, amma Güləri gördüm deyən olmadı.

Mən isə onun hara getdiyini dəqiq bildiyim üçün sakitcə bataqlığa yollandım. Alaqaranlıqda bataqlığın kənarında Gülərin bir cüt ayaqqabısı ağarırdı..

***Maya İmran***

## İdman

### Javon Deniels ilə yollar ayrıldı



"Sumqayıt" komandası basketbolçusu ilə yollarını ayırıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, "kimyaçılar" amerikalı Javon Deniels ilə vidalaşıb. Basketbolçu ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

### FIBA Çempionlar Liqasının pley-in görüşü Bakıda keçiriləcək

FIBA Çempionlar Liqasında Türkiyənin "Aliağa Petkim Spor" və İsrailin "Hapoel Holon" klubları arasında pley-inin ilk oyunu Bakıda təşkil olunacaq.

Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, "Aliağa Petkim Spor"un rəqibi olan "Hapoel Holon" komandası İstanbula gəlmək istəməyib və bu halda görüşün neytral meydanda keçirilməsi nəzərdə tutulub. Matç yanvarın 7-də hər iki tərəfin razılığı əsasında Bakı İdman Sarayında reallaşacaq. Qeyd edək ki, əgər pley-in görüşlərində hesab bərabər olarsa, yanvarın 22-də 3-cü oyun da məhz Bakıda baş tutacaq.




### Mario Balotelli Meksika klubunda oynaya bilər

Tanınmış italiyalı futbolçu Mario Balotelli qışda "Cenoa"nı tərk etmək istəyir. AZƏRTAC "La Gazzetta dello Sport"a istinadən xəbər verir ki, 34 yaşlı hücumçu ölkə xaricində oynamaq niyyətindədir. O, Meksika təmsilçisi "Kruz Azul"a keçməyə yaxındır. Tərəflər arasında ilkin danışıqlar olub. Lakin maaş məsələsində hələlik ortaq məxrəcə gəlinməyib.

Qeyd edək ki, Mario Balotelli oktyabrın sonunda azad agent kimi "Cenoa"ya keçib. Futbolçu bu müddət ərzində 6 matçda iştirak edib və 56 dəqiqə meydanda olub.



# Miqren müalicəsində yeni dərman...

"Neurology" jurnalında dərc edilən araşdırmaya əsasən, yeni təsdiq edilmiş atogepant adlı dərman miqrenin qarşısını almaqla yanaşı, dərhal təsir göstərmə potensialına malikdir. Bu ağızdan qəbul edilən kalsitonin geni ilə əlaqəli peptid (CGRP) reseptor antaqonisti miqren xəstələri üçün yeni ümid təqdim edir.



Albert Eynşteyn Tibb Kollecinin tədqiqatçısı və araşdırmanın aparıcı müəllifi Riçard B. Lipton bu barədə məlumat verib. Bildirib ki, miqrenin profilaktik müalicəsində düzgün dozanın tapılması aylar tələb edə bilər və bu səbəbdən bir çox insan müalicəni vaxtından əvvəl dayandırır: "Atogepant isə həm effektiv, həm də sürətli təsir göstərmə potensialına malikdir".

Araşdırma 12 həftə ərzində üç müxtəlif klinik sınaqda ("Advance", "Elevate" və "Progress") aparılıb və həm epizodik, həm də xroniki miqren xəstələrini əhatə edib. Sınaqlarda 1243 iştirakçı arasında atogepant qəbul edənlərdə müəyyən nəticələr müşahidə olunub:

Birinci günün nəticələri - "Advance" sınağında dərman qəbul edənlərin yalnız 12 faizi miqren keçirib, plasebo qəbul edənlərdə isə bu göstərici 25 faiz təşkil edib. "Elevate" sınağında bu nisbət müvafiq olaraq 15 və 26 faiz, "Progress" sınağında isə 51 və 61 faiz olub. Risk azalma göstəriciləri - dərman qəbul edənlərdə miqren riski birinci sınaqda 61 faiz, ikinci sınaqda 47 faiz, üçüncü sınaqda isə 37 faiz daha az olub. Həftəlik miqren günlərinin azaldılması - ilk iki sınaqda dərman qəbul edənlərdə həftəlik miqren günlərinin sayı orta hesabla 1 gün azalıb, plasebo qəbul edənlərdə isə bu rəqəm daha az olub. Üçüncü sınaqda dərman qəbul edənlərdə bu göstərici həftədə 1,5 gün azalmaqla, plasebo ilə müqayisədə daha əhəmiyyətli olub.

Atogepant, xəstələrin gündəlik fəaliyyətlərinə və həyat keyfiyyətinə mənfi təsir göstərən miqren simptomlarını əhəmiyyətli dərəcədə azalda bilib. R.B.Lipton qeyd edir ki, miqren, xüsusən də gənc qadınlar arasında əlilliyin əsas səbəblərindən biridir və sosial, maliyyə, karyera və ailə həyatına ciddi təsir edir: "Tez və effektiv hərəkət edə bilən bir müalicə bu xəstəlikdən əziyyət çəkən insanlar üçün əsas ehtiyacı qarşılayır".

Atogepantın həm effektivliyi, həm də tez təsir göstərmə xüsusiyyəti miqrenin profilaktik müalicəsində inqilabi bir addım olaraq qiymətləndirilir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4800**
**Sifariş: 3010**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova